RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 67 (8383) ŞƏNBƏ, 11 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Türk Şurası dostluq və qardaşlıq təməlləri əsasında qurulub

## Prezident İlham Əliyevin təşəbbüsü ilə bu qurumun dünya miqyasında ilk beynəlxalq təşkilat kimi dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşü keçirildi

**Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunub.**

**Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış edib.**

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru.

Əziz dostlar.

Mən sizin hamınızı səmimiyyətlə salamlayıram. Azərbaycanın sədr ölkə kimi irəli sürdüyü Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünü dəstəklədiyiniz üçün təşəkkürümü bildirirəm. Bu təşəbbüsün irəli sürülməsindən bir neçə gün sonra Zirvə görüşünün təşkili göstərir ki, Türk Şurası dostluq və qardaşlıq təməlləri əsasında qurulubdur.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesusa Zirvə görüşünə qoşulduğuna görə minnətdarlığımı bildirirəm.

Zirvə görüşünün gündəliyi təqdim olunmuşdur. Gündəliklə bağlı hər hansı təklifiniz yoxdursa, işimizə başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü Bakıda keçirildi. Azərbaycan bu Zirvə görüşündə sədrliyi öz üzərinə götürdü. Dərhal Azərbaycan sədr ölkə kimi fəaliyyətə başladı. Sədrlik etdiyimiz dövrdə dünyada təşkilatın nüfuzunun daha da artırılması, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində səylər göstəririk.

Koronavirus xəstəliyi sərhəd tanımayaraq dünya boyunca yayılmış və faciəvi nəticələrə gətirib çıxarmışdır. Pandemiya səbəbindən ölkələrimizdə və dünyada həyatını itirənlərə rəhmət diləyir, onların yaxınlarına başsağlığı verir və yoluxanların tezliklə şəfa tapmasını arzulayıram.

Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirir.

*Ardı 2-ci səh.*

## Baş redaktordan

# 4. Əsl azərbaycanlı mənəviyyatı

İnsan insanı dar gündə sınayar - əbəs deməyib atalar!

Tanrı dünyanı, o cümlədən müstəqil Azərbaycanı çox çətin və ağır sınağa çəkib!

COVID-19 - koronavirus sınağına!

Çətin, təhlükəli günlər yaşayırıq!

Hələ bu çətinliyin nə qədər çəkəcəyini, təhlükənin haçan sovuşacağını dəqiq bilən yoxdur!

Ehtimal və proqnozlar isə çox söylənilir!

Amma ötən dar günlərin müəyyən nəticələrinə nəzər salmaq, baş verənləri isti-isti qiymətləndirib ilkin ümumiləşdirmə aparmaq da mümkündür!

*Ortada kifayət qədər gərginlik, vaxtında atılan addımlar, düzgün qərarlar, eyni zamanda, bəs qədər məsuliyyətsizlik, vətəndaş intizamsızlığı müşahidə edildiyi vaxtda müsbəti və yaxşıları görüb qiymətləndirmək də vacib və gərəklidir!*

Xüsusən də xalqın mənəviyyatı, milli-mənəvi dəyərləri ilə bağlı olan məqamları.

❖ ❖ ❖

**Qürur və razılıq doğuran ən yaxşı hal dövlətimizin ekstremal vəziyyətə hazır olması, dövlət başçısı cənab İlham Əliyevin dar macalda ən düzgün qərarlar qəbul edib, dövləti və xalqı dərhal səfərbərliyə alması oldu!**

Bu, yalnız Prezident İlham Əliyevin uzaqgörənliyi, baş verənləri dərhal qiymətləndirmək məharəti və bir rəhbər kimi xarizması ilə bağlı deyil!

Həm də onun xalqına olan sonsuz məhəbbəti, Azərbaycan vətəndaşına sevgisi və ən əsası, humanizmi, insanları real təhlükədən qurtarmaq, bəlanı daha tez və az itki ilə sovuşdurmaq üçün göstərdiyi can yanğısından da qaynaqlanır!

*Biz Prezidentimizdə bu mənəvi keyfiyyətlərin - dərhal təhlükə yerinə şəxsən baş çəkməsini, hadisələrlə yerində tanış olub insanları, mütəxəssisləri dinləyərək bundan sonra ən zəruri, düzgün qərarlar verməsini dəfələrlə görmüşük.*

Bir neçə faktı birlikdə xatırlayaq:

- Lənkəranda yaşayış binası uçanda;
- Zaqatalada yeraltı təkanlar dağıntılar törədəndə;
- Kür daşqınları ətraf kəndləri basıb evləri uçuranda;
- Zəlzələ Şamaxı və İsmayıllı rayonlarında çoxsaylı evləri dağıdıb ziyan vuranda;
- Aprel müharibəsi zamanı cəbhəyanı kəndlərin əhalisində müəyyən təlaş və qorxu yarananda və s.

Dövlət başçısı dəfələrlə hadisə yerlərinə baş çəkdi, çoxsaylı sərəncamlar verdi, tapşırıqların icrasına şəxsən nəzarət etdi, vəziyyət qaydaya düşənə qədər məsələni diqqətində saxladı!

Deyirlər hər cür müqayisə qüsurlu olur!

Amma müqayisəsiz ötüşmək də çətindir!

Xüsusən ona görə ki, həqiqət müqayisə zamanı daha aydın və qabarıq görünür!

*Müstəqillik ərəfəsində və dövlət müstəqilliyinin ilk illərində Azərbaycana başçılıq edənlər - Ə.Vəzirov, A.Mütəllibov və Ə.Elçibəy gərgin an yaşanan kimi təyyarəyə minib aradan çıxdılar!*

*Dövlətin və xalqın sonrakı taleyini unudaraq canlarının hayına qaldılar!*

**Bu xoşagəlməz ənənəyə son qoyan Ulu Öndər Heydər Əliyev oldu!**

**4 oktyabr 1994-cü il və 13-18 mart 1995-ci il dövlət çevrilişinə cəhd zamanı öz postunda sonadək oturdu, xalqa müraciət edərək onu səfərbərliyə aldı, xain niyyətlərin qarşısına sədd çəkdi!**

*Ardı 4-cü səh.*

## "Quru limanlar haqqında" Hökumətlərarası Sazişə qoşulmaq barədə

### Azərbaycan Respublikasının QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2013-cü il noyabrın 7-də Banqkok şəhərində imzalanmış "Quru limanlar haqqında" Hökumətlərarası Sazişə müvafiq bəyanatla və qeyd-şərtlə qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 mart 2020-ci il*



## Lider-xalq birliyinin təcəssümü

### Vətəndaşlar koronavirusla mübarizə sahəsində görülən tədbirlərə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirir, ən səmimi arzularını çatdırırlar

**Qlobal pandemiyaya çevrilən koronavirus infeksiyasının yayılması dünyanın müxtəlif ölkələrində ağır fəsadlara yol açıb.**

Yüksək səhiyyə sisteminə malik olsalar da, ABŞ, İtaliya, İspaniya, Fransa kimi ölkələrdə virusa yoluxanların sayı son həftələrdə sürətlə artıb. Bu ölkələrdə infeksiyadan ölənlərin sayı isə on mini ötüb. İndiyədək bütün dünyada koronavirusdan 96 minə yaxın insan vəfat edib ki, bunun da 83 mini Avropa və ABŞ-ın payına düşür.

*Ardı 4-cü səh.*

## İlham Əliyevdən xalqa 4,8 milyard manatlıq dəstək

### Prezidentin yeni iqtisadi və sosial paketi pandemiyadan maddi zərər görən bütün təbəqələrin narahatlığına son qoyacaq

**2019-cu il - maliyyə həcmi 2,3 milyard manat olan 2 sosial paket;**

**2020-ci il - maliyyə həcmi 2,5 milyard manat olan dövlət dəstək proqramları.**

Bunlar Prezident İlham Əliyevin cəmi iki il ərzində ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində təqdim etdiyi 3 sosial-iqtisadi paketinin real göstəricisidir. Göründüyü kimi ən islahatçı Prezident iki ildə ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına, sahibkarlığın daha da inkişaf etdirilməsinə 4,8 milyard manat vəsait ayırıb. Dövlət başçısının tapşırığı ilə hazırlanan yeni dövlət dəstəyi proqramları isə müstəqillik tariximizdə xalqa ən böyük iqtisadi-sosial yardım paketidir.

Ancaq nəzərə almalıyıq ki, bütün bunlar neftin qiymətinin kəskin aşağı düşməsi və koronavirus pandemiyasının dünyanı vahiməyə saldığı bir dövrə təsadüf edir.

*Ardı 6-cı səh.*

## *Operativ Qərargah:* "Rusiyada yaşayan və hazırda Azərbaycana qayıtmaq istəyən vətəndaşlarımızı karantin rejiminin qaydalarına əməl etməyə çağırırıq"

### Səfirlik və konsulluqlarda qeydiyyatdan keçmiş şəxslərin müəyyən qrafiklə Vətənə dönüşünün təmin olunması məsələsinə baxılacaq

**Koronavirus (COVID-19) xəstəliyinin geniş yayılmasının qarşısının alınması istiqamətində beynəlxalq səviyyədə həyata keçirilən tədbirlər çərçivəsində bir sıra dövlətlər sərhədlərin bağlanmasına qərar verərək ölkə ərazisinə giriş-çıxışı müvəqqəti dayandırıb.**

Əksər dövlətlər hava reyslərini təxirə saldığından 2020-ci il mart ayından etibarən xaricdə olan və Azərbaycana qayıtmaq istəyən vətəndaşlarımıza müraciətlər edilib, Azərbaycan hökuməti tərəfindən ayrılmış müntəzəm çarter reysləri üzrə İran, Türkiyə, Rusiya, İtaliya, Macarıstan və digər ölkələrdən soydaşlarımızın geri dönüşü təmin olunub. Sonrakı mərhələdə COVID-19 pandemiyası ilə əlaqədar Azərbaycandakı mövcud vəziyyət təhlil edilib və xəstəliyin geniş yayılmasının qarşısının alınması məqsədi ilə 5 aprel 2020-ci il tarixdən 20 aprel 2020-ci il tarixədək yükdaşımalar istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən yerli hava uçuşları dayandırılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, sərhədlərin bağlanması barədə əvvəlcədən xəbərdarlıq edilməsinə baxmayaraq, hazırda Rusiya Federasiyasında yaşayan Azərbaycan vətəndaşlarının bir qisminin Vətənə qayıtmaq məqsədilə sərhəd-buraxılış məntəqəsinə toplaşması, sərhəddə gərginlik yaratması kimi hallar müşahidə olunmaqdadır.

*Ardı 3-cü səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Türk Şurası dostluq və qardaşlıq təməlləri əsasında qurulub

## Prezident İlham Əliyevin təşəbbüsü ilə bu qurumun dünya miqyasında ilk beynəlxalq təşkilat kimi dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşü keçirildi

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*

Bu, bizim nümunəvi səviyyədə olan həmrəyliyimizin növbəti bariz təzahürüdür. Bizi birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır.

Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır.

Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atmışdır. Məhdudlaşdırıcı tədbirlər yaranmış şəraitə uyğun aparılmışdır. Mənim sərəncamımla bu ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə aprelin 20-dək dayandırılmışdır. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir. Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılmış, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edilmişdir. Şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılmışdır. Aprelin 5-dən etibarən ölkədə hərəkət məhdudiyyəti tətbiq olunur. Bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verilir.

Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Biz mart ayının əvvəlində təşkilatın mütəxəssislərini Azərbaycana dəvət etmişik. Qısa müddətdə dəvətimizə cavab verilmişdir. Belə ki, 9-13 mart tarixlərində təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə olmuşdur. Onlar ölkəmizdə vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət vermişlər. Ekspert missiyasının hazırladığı hesabatda da öz əksini tapmış tövsiyələr aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınır.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesus tərəfindən mart ayının 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır. Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək koronavirusa qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır. Mart ayının 13-də Azərbaycan tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalamışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

On altı il ərzində Azərbaycanın səhiyyə sistemində köklü işlər görülmüşdür, həkimlərin peşəkarlıq səviyyəsi yüksəlmişdir, 750-dən çox səhiyyə ocağı tikilmiş və ya tam təmir olunmuşdur. Hər il Azərbaycanda 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir.

Koronavirus xəstələri 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Bu günlərdə 575 çarpayıdan ibarət olan, ölkəmizin ən müasir və "Yeni klinika" adlanan xəstəxanası onların ixtiyarına verilmişdir. Bu ilin mart ayında ölkəmizin 3 şəhərində üç yeni xəstəxana istifadəyə verilmişdir. Onların ümumi çarpayı sayı 500-dən çoxdur. Bu xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilmişdir. Qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər birinin 200 çarpayı yeri olan 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulur.

Həkimlərimizin və tibb işçilərimizin koronavirus xəstəliyinə qarşı mübarizədə xidmətlərini yüksək qiymətləndiririk. Koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4 və 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən qayğının təzahürüdür.

On beş mindən artıq Azərbaycan vətəndaşı müxtəlif ölkələrdən, o cümlədən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə təxliyə edilmişdir. Ölkəyə qaytarılmış bütün vətəndaşlarımız dövlət hesabına 4 və 5 ulduzlu mehmanxanalarda, xüsusi karantin zonalarında yerləşdirilmişdir. Eyni zamanda birinci Avropa Oyunları zamanı açılmış Atletlər kəndində də karantinə alınmış şəxslər yerləşdirilir.

Beynəlxalq ticarət daşımaları istisna olmaqla, qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində qonşu dövlətlərlə yerüstü və hava nəqliyyatı bağlantıları müvəqqəti olaraq dayandırılmışdır. Digər ölkələrlə beynəlxalq hava sərnişin daşımaları da dayandırılmışdır.

İndiyə kimi ölkə üzrə 60 minə yaxın test keçirilmişdir. Əhalinin hər bir milyon nəfərinə düşən testin sayı 5200-dən artıqdır. Aparılan testlərin sayına görə dünyada 30-cu, hər milyon əhaliyə görə aparılan testlərin sayına görə 40-cı yerlərdəyik. Azərbaycanda testlərin aparılması üçün 18 laboratoriya fəaliyyət göstərir, onların 5-i yeni yaradılmışdır.

Hazırda dünyada tibbi ləvazimatların və avadanlıqların alınması probleme çevrilmişdir. İstehsal olunan avadanlıqlar və ləvazimatların satılması dövlətlər tərəfindən məhdudlaşdırılmışdır. Ona görə də daxili istehsal ehtiyacı yaranmışdır. Daxili tələbatı ödəmək üçün aprel ayının əvvəlində ölkəmizdə operativ şəkildə tibbi maska istehsalı müəssisəsi fəaliyyətə başlamışdır.

Mənim təşəbbüsümlə Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edilmişdir. Hazırda bu fonda köçürülmüş ianələrin həcmi 110 milyon manatdan və ya 65 milyon dollardan artıqdır. Dövlət vəsaiti ilə bərabər, ayrı-ayrı şəxslərin, sahibkarların və təşkilatların fonda könüllü ianəsi həm də böyük rəmzi məna daşıyır. Bu, Azərbaycan cəmiyyətində olan həmrəyliyin nümunəsidir.

Sirr deyil ki, koronavirus pandemiyası dünya ölkələrinin iqtisadiyyatına zərbə vurmuşdur. Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və həm də makroiqtisadi və maliyyə vəziyyətimizi sabit saxlamaq üçün 2,5 milyard manat və ya təqribən 1,5 milyard dollar vəsait ayrılmışdır. Pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabineti Tədbirlər Planı hazırlamış və təsdiq etmişdir. Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, görərik ki, 600 minə yaxın insan bu vəziyyətdən daha çox əziyyət çəkir. Sahibkarlara müraciət olunmuşdur ki, iş yerləri ixtisar edilməsin. Qırx dörd min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyəcək. Həmçinin dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalanacaqdır. Bu proqramlar, ümumilikdə, 600 minə yaxın insanı əhatə edir. Ümumilikdə, dövlət sektoru üzrə 900 mindən artıq işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilmişdir. İşsiz şəxslərin sosial müdafiəsi üçün 50 min ödənişli ictimai iş yeri yaradılacaqdır. Qeydiyyata düşmüş işsizlər üçün birdəfəlik ödəmələrə başlanmışdır. Banklar tərəfindən sahibkarlara yeni verilən 500 milyon manat və ya təqribən 300 milyon dollar həcmində kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir. Zəmanət verilən kreditlər üzrə faiz dərəcəsinin yarısı dövlət büdcəsinin vəsaitləri hesabına subsidiyalaşdırılacaqdır. Dövlət zəmanəti olmayan 1 milyard manat, təqribən 600 milyon dollar həcmində mövcud bank kreditləri üzrə faiz dərəcəsinin 10 faiz bəndi subsidiyalaşdırılacaqdır. Bunun üçün dövlət büdcəsindən 50 milyon manat və ya təqribən 30 milyon dollar vəsait ayrılmışdır. Bu tədbirin əsas məqsədi pandemiya səbəbindən faizlərin ödənilməsində çətinliklərlə üzləşmiş sahibkarlara kömək etməkdir. Sosial təcrid tədbirləri nəticəsində əhali tərəfindən elektrik enerjisi sərfi artmışdır. Bunu nəzərə alaraq kommunal ödəmələrə güzəşt edilmişdir. Bu proqramlar dövlətin dəstəyinin yalnız bir hissəsidir və digər dövlət dəstəyi mexanizmləri üzərində hazırda iş aparılır.

Hörmətli dostlar, hesab edirəm ki, bugünkü fövqəladə Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atdığımız addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birimizə dəstək göstərilməsi və xalqlarımız arasında həmrəyliyin möhkəmləndirilməsidir. Mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıblar. Təşkilat olaraq Türk Şurası digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir.



Ölkələrimizin iqtisadiyyatı, ticarət münasibətlərimiz və idxal-ixrac əməliyyatları üçün nəqliyyat daşımaları mühüm əhəmiyyətə malikdir. Azərbaycan Türkiyə və Mərkəzi Asiya arasında etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görmüşdür. Qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində ölkələrimiz arasında beynəlxalq yükdaşımaları fasiləsiz olaraq həyata keçirilir. Pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ilin ilk üç ayı ərzində türkdilli ölkələrdən 180 min tondan artıq yük Azərbaycan vasitəsilə daşınmışdır ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40 min ton çoxdur.

Səhiyyə xidmətləri sahəsində əməkdaşlığımız, o cümlədən tibb mütəxəssislərinin təcrübə mübadiləsi, birgə tibbi komissiyaların yaradılması üçün yaxşı imkanlar vardır. Bundan əlavə, sərnişin nəqliyyat daşımalarının müvəqqəti bağlanmasına görə ölkələrimizin ərazisində qalan bir-birimizin vətəndaşlarına dəstək və yardım göstərməyimiz vacibdir. Bizim gördüyümüz bu tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması və pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların yüngülləşdirilməsi, iqtisadiyyatlarımızın davamlı inkişafının təmin edilməsi məqsədi daşıyır. Ümid edirəm ki, ölkələrimiz və xalqlarımız bu ağır vəziyyətin öhdəsindən layiqincə gələcək və pandemiyaya qarşı qlobal mübarizəyə öz layiqli töhfəsini verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

İndi isə söz Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesusa verilir. Buyurun.

❖ ❖ ❖

**Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom QEBREYESUS** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident Əliyev.

Hörmətli prezidentlər, Baş nazirlər, Baş katib, hörmətli dostlar, həmkarlar.

Əvvəla çox sağ olun ki, burada çıxış etmək, sizə müraciət etmək üçün məni dəvət etmisiniz. Cenevrədən sizə qoşula bilməyim mənə çox xoşdur. Buna görə müasir texnologiyalara minnətdar olmaq lazımdır. Həqiqətən də bu, möcüzədir.

Hörmətli Prezident Əliyev, mən Azərbaycanda olarkən həqiqətən Sizin öz işinizə sədaqətinizin şahidi oldum. Fürsətdən istifadə edib bunu etiraf etmək istərdim. Səfərim müddətində mənə göstərdiyiniz qonaqpərvərliyə görə sağ olun. Ümidvaram ki, pandemiya başa çatandan sonra mən və digər prezidentlər yenidən oraya gələcəyik. Mən də söz verirəm ki, Sizi ziyarət etmək üçün əlimdən gələni edəcəyəm.

COVID-19 virusu həqiqətən qlobal miqyasda yayılıb. Siz və Sizin Şura bizimlə sıx əməkdaşlıq edirsiniz. Bu əməkdaşlıq xəstəxanaların imkanları, humanitar yardım, testlər, elmi, texniki biliklərin mübadiləsi, tibbi və texniki dəstək məsələlərini əhatə edir. Bu, sərhədaşırı əməkdaşlıq nümunəsidir. Pandemiyaya qarşı səmərəli mübarizə aparmaq üçün bizə bu lazımdır. COVID-19 meydana çıxandan bəri 100 gündən artıq vaxt keçib. COVID-19-un qlobal miqyasda yayılması səhiyyə sisteminə ciddi zərbə vurub, dünya iqtisadiyyatını sarsıdıb, ciddi sosial problemlərə gətirib çıxarıb. Ölüm göstəricisi qrip ilə müqayisədə 10 dəfə yüksəkdir. Bundan əlavə, virus olduqca yoluxucudur, çox sürətlə yayılır. Yoluxanların sayı 1,3 milyon, ölənlərin sayı 80 mindir. Əməkdaşlıq Şurasının üzvü olan 5 dövlət 36 min yoluxma və 750 ölüm faktı barədə məruzə ediblər. Bu, pandemiyadır. Bu, səhiyyə böhranından da artıqdır. Burada bütün hökumətlər, bütün cəmiyyət fəaliyyət göstərməlidir. Son 100 gündə COVID-19 göstərdi ki, hətta inkişaf etmiş, zəngin dövlətlər də zərər çəkiblər. Əlbəttə, görürük ki, əsas zərbə həssas ölkələrə dəyir. Belə olmaması üçün biz nə mümkündürsə edirik. Əlbəttə, milli və submilli səviyyədə imkanlar pəncərəsi bütün ölkələrdə bağlanır. Bununla belə, biz əlimizdən gələni edirik. Yeri gəlmişkən, sizin ölkələrə də testləşdirmə avadanlığı və digər avadanlıq göndərmişik. Bu, ilin əvvəlindən olub. Əlbəttə, siz pandemiyanın müxtəlif mərhələlərindəsiniz. Lakin epidemiyanın səhiyyə sisteminə, sosial xidmətlərə və iqtisadi fəaliyyətə təsirini minimuma endirmək üçün hamı səyləri artırmalıdır. Sosial ünsiyyətin məhdudlaşdırılması məsələsinə gəldikdə, burada münasibət bildirmək üçün bir qədər vaxtımız var. Əlbəttə, bütün səviyyələrdə adekvat işi təmin etmək, bütün hadisələri, bütün əlaqələri izləmək lazımdır. Testləşdirmə vacibdir, ümumiyyətlə, səhiyyə sisteminə adekvat münasibəti təmin etmək lazımdır. Bu, həssas qruplara daha çox aiddir. Hamı üçün əsas xidmətlərin əlçatan olması təmin edilməlidir, əks halda epidemiyanı nəzarətdə saxlamaq çox çətindir, hamı təhlükəli vəziyyətə düşər.

Milli strategiyalar 5 əsas sahədə beynəlxalq səviyyədə dəstəklənməlidir. Biz bu 5 sahəyə birinci dərəcəli əhəmiyyət veririk. Birincisi, adekvat münasibət bildirmək üçün biz potensialı artırmağı çox istəyirik. İkincisi, epidemioloji təhlili və risklər haqqında informasiyanı təmin etmək lazımdır. Daha sonra qlobal təchizatın əlaqələndirilməsi təmin edilməlidir. Növbəti məqam texniki və ekspert köməyi təqdim edilməsi, hər yerdə tibbi qüvvələrin səfərbər olunması və toplanmış biliklərin mübadiləsinin fəallaşdırılması ilə bağlıdır. Bizim strateji planımız var. Yaxın günlərdə onu dərc edəcəyik. Növbəti mərhələdə milli və beynəlxalq strategiyaların reallaşdırılması üçün çox ciddi resurslar lazımdır. Bu çağırışa cavab verənlərin hamısına təşəkkürümü bildirmək istərdim. 800 milyon dollar yardım göstərilməsi elan edilib. Bu, çox yaxşı faktdır.

Azərbaycan hökumətinə və Azərbaycan xalqına da verdikləri töhfəyə görə təşəkkür etmək istəyirəm. Həqiqətən, Azərbaycan 5 milyon dollar ianə verib. Türkiyə də sağ olsun. Əlbəttə, çox sağ olun. Avropalı qonşularınıza kömək edir, onlara əsas materiallar göndərirsiniz. Hamınıza təşəkkür etmək istərdim.

Gəlin həmrəylik layihəsində iştirak edək. Gəlin baxaq, hansı metodlar, hansı vasitələr daha səmərəli olub. Bu həmrəylik layihəsində artıq bir sıra ölkələr iştirak edirlər. Pandemiyaya son qoymaq üçün əlbəttə, əməkdaşlığı və qarşılıqlı fəaliyyəti genişləndirmək lazımdır. Siz isə bunu edə biləcəyinizi göstərdiniz. Biz hamımız birlikdə bu vəziyyətə düşmüşük. Biz hələ uzun bir yol keçməliyik. Prezident Əliyevin indicə dediyi kimi, nə lazımdır - həmrəylik və qətiyyət. Biz bu ümumi təhlükəni birlikdə dəf edəcəyik.

Çıxış etmək imkanı verdiyinizə görə çox sağ olun. Zati-aliləri, Sizin tədbirinizdə iştirak etmək mənim üçün böyük şərəfdir.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:**

- Çıxışınıza görə təşəkkür edirəm. Bir daha qeyd edirəm ki, biz Ümumdünya Səhiyyə Təşkilatının koronavirusa qarşı mübarizədə rolunu yüksək qiymətləndiririk. Sizin rəhbərliyinizlə Ümumdünya Səhiyyə Təşkilatının bütün kollektivinə bu çətin və məsuliyyətli vəzifədə uğurlar arzulayırıq. Sağ olun, hörmətli cənab Baş direktor.

İndi isə söz verilir Qazaxıstan Respublikasının Prezidenti cənab Kasım-Jomart Tokayevə. Buyurun.

❖ ❖ ❖

**Qazaxıstan Prezidenti Kasım-Jomart TOKAYEV** çıxış edərək dedi:

- Hörmətli dövlət başçıları, sammit iştirakçıları. Çıxışımın əvvəlində bugünkü tədbirin təşəbbüskarı olan Azərbaycan Prezidentinə səmimi-qəlbdən minnətdarlığımı bildirirəm. Həmçinin Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Qebreyesusa təşəkkür edirəm ki, bu gün bizimlə bir yerdədir. Artıq Türk Şurası çoxtərəfli məsələlərin müzakirə olunduğu platformaya çevrilib. Bu, bizim ölkələrimizin ümumi nailiyyətidir.

Hazırkı Zirvə görüşünün çətin zamanda - pandemiya dövründə keçirildiyini vurğulayan Qazaxıstan dövlətinin başçısı vurğuladı ki, bütün ölkələr səyləri birləşdirməlidir. O qeyd etdi ki, müzakirələr zamanı gündəlikdə duran əsas məsələ pandemiyanın yayılmasının qarşısını almaq üçün atılacaq addımların müəyyənləşdirilməsidir. Qazaxıstan Prezidenti ölkəsində virusun qarşısının alınması ilə bağlı görülən işlərdən danışdı. Vurğuladı ki, hazırkı vəziyyət qlobal iqtisadiyyatın inkişaf templərinə mənfi təsir edib, qlobal geosiyasi və iqtisadi vəziyyəti dəyişib.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:**

- Təşəkkür edirəm, cənab Prezident. İndi isə söz verilir Qırğız Respublikasının Prezidenti cənab Sooronbay Jeenbekova. Buyurun.

❖ ❖ ❖

**Qırğızıstan Prezidenti Sooronbay JEENBEKOV** çıxış edərək dedi:

- Hörmətli həmkarlar. Sizinlə görüşməyə şadam. Koronavirus infeksiyasına qarşı mübarizədə bütün dünyaya uğurlar, tezliklə adi həyata qayıtmaq və dövlətlərimizin firavanlaşmasını arzu etmək istərdim.

Bu təşəbbüsə görə Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Heydər oğlu Əliyevə və Türk Şurasına dərin minnətdarlığımı bildirirəm.

Qırğız Respublikasının Prezidenti qeyd etdi ki, müasir dövrün ən vacib çağırışı koronavirus infeksiyasının dünyada yayılmasıdır. O, Qırğızıstanda bu xəstəliyə qarşı mübarizədə görülən işlərdən danışdı və ölkəsinin ciddi təhdidlərlə üzləşdiyini vurğulayaraq dedi:

- Təəssüf ki, bizim ölkəmizdə də yoluxmuş insanların sayı artır. Virusun yayılmasının qarşısını almaq və iqtisadiyyatı dəstəkləmək üçün hər cür tədbir görülür. Vəziyyət tam nəzarətdədir. Fürsətdən istifadə edib Türk Şurasının üzvü olan dövlətlərin - Özbəkistan, Qazaxıstan, Azərbaycan və Türkiyənin rəhbərliyinə bizə göstərdikləri köməyə görə təşəkkürümü bildirmək istəyirəm.

Prezident Sooronbay Jeenbekov koronavirus infeksiyasının dünyada yayılmasının və bunun nəticəsində yaranmış vəziyyətin davamlı xarakter almasının çoxsaylı risklərə səbəb olduğunu bildirdi, pandemiyanın qarşısını almaq üçün birgə səylərin əhəmiyyətinə toxunaraq dedi:

- Türk Şurasında Azərbaycanın sədrliyi çox mürəkkəb dövrdə keçir. Ümidvaram ki, biz koronavirusla bağlı problemlərdən uğurla xilas olacaq və Azərbaycanın sədrliyi ilə iqtisadiyyat, ticarət və investisiyalar sahəsində əməkdaşlığı möhkəmlədəcəyik. Ümid edirəm ki, ölkələrimizin əməkdaşlığı səmərəli olacaq və xalqlarımızın həyat səviyyəsinin yaxşılaşmasına şərait yaradacaq. Diqqətinizə görə sağ olun.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:**

- Təşəkkür edirəm, cənab Prezident. İndi isə söz verilir Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğana. Buyurun.

❖ ❖ ❖

**Türkiyə Prezidenti Rəcəb Tayyib ƏRDOĞAN** çıxış edərək dedi:

- Dəyərli qardaşım, Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürümü bildirirəm... Bütün bəşəriyyət indi görünməz bir düşmənə qarşı çətin müharibə aparır. Türk Şurasının bu fövqəladə Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizəmizdə aramızdakı həmrəyliyi möhkəmləndirəcək. Türk dünyası olaraq Allahın izni ilə bu çətin dövrdən də güclənərək çıxacağımıza səmimi-qəlbdən inanıram.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan koronovirus pandemiyası ilə əlaqədar ölkəsində həyata keçirilən tədbirlərdən danışdı. Qeyd etdi ki, bu çətin günlərdə Türkiyə öz qardaşlarının yanında olmağa, onlara yardım etməyə çalışır. Bu baxımdan Türk Şurası üzvləri arasında da həmrəyliyin nümayiş etdirilməsi məmnunluq doğurur. Rəcəb Tayyib Ərdoğan pandemiyanın dünya iqtisadiyyatına mənfi təsirindən danışdı, onun fəsadlarının azaldılmasının, həmçinin ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayaraq dedi:

- Türkiyə ilə Azərbaycan və Gürcüstan arasında yük daşımaları üçün istifadə edilən dəmir yolu xəttini Orta Asiyayadək uzada bilərik. Bakı-Tbilisi-Qars dəmir yolu xətti vasitəsilə mövcud yükə əlavə olaraq gündəlik 3500 ton yükün daşına bilməsi üçün işlər görürük. Bağlanan quru yollar ilə əlaqədar Azərbaycan və Qazaxıstan türk nəqliyyatçıları üçün mühüm bir tranzit marşruta çevrilib.

"Əlbəttə ki, koronovirusla savaşda qalib gələcəyik, bunun ardınca yeni dünya reallığı ilə üz-üzə qalacağıq", - deyən Türkiyə Prezidenti pandemiyadan sonrakı dövr üçün də hazırlıqların görülməsinin əhəmiyyətinə toxundu.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:**

- Təşəkkür edirəm cənab Prezident. İndi isə söz verilir Özbəkistan Respublikasının Prezidenti cənab Şavkat Mirziyoyevə. Buyurun.

❖ ❖ ❖

**Özbəkistan Prezidenti Şavkat MİRZİYOYEV** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru.

Əziz dostlar.

İlk növbədə, Türk Şurasının bugünkü növbədənkənar Zirvə görüşünün təşkil olunması təşəbbüsü ilə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə səmimi minnətdarlığımı bildirirəm. Videokonfrans formatında görüşümüz bütün dünyada böyük narahatlıq doğuran koronavirus pandemiyasının qarşısının alınması kimi olduqca vacib və aktual məsələyə həsr edilib.

Dünyada çox sayda insanın pandemiya ilə bağlı yaranmış vəziyyətdən əziyyət çəkdiyini deyən Özbəkistan Prezidenti virusun yayılma tempi və miqyasına görə misli görülməmiş qlobal böhrana, bütün bəşəriyyət və dünya iqtisadiyyatı üçün çox ciddi təhdidə çevrildiyini vurğuladı.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:**

- Təşəkkür edirəm cənab Prezident. İndi isə söz verilir Türkmənistan Prezidenti cənab Qurbanqulu Berdiməhəmmədova. Buyurun.

*Ardı 3-cü səh.*

# Türk Şurası dostluq və qardaşlıq təməlləri əsasında qurulub

## Prezident İlham Əliyevin təşəbbüsü ilə bu qurumun dünya miqyasında ilk beynəlxalq təşkilat kimi dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşü keçirildi

*Əvvəli 2-ci səh.*

❖ ❖ ❖

**Türkmənistan Prezidenti Qurbanqulu BERDİMƏHƏMMƏDOV** dedi:

- Hörmətli sammit iştirakçıları.

Mən də öz növbəmdə sizi səmimi-qəlbdən salamlayıram. Sizin hamınıza cansağlığı, dövləti və beynəlxalq fəaliyyətinizdə uğurlar arzu edirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə bu sammitin təşkili ilə bağlı irəli sürdüyü təşəbbüsə görə dərin minnətdarlığımı bildirirəm. Bu görüş bizə bütün dünya ölkələrinə aid olan qlobal xarakterli məsələləri müzakirə etməyə yaxşı imkan verir. Aydındır ki, bu gün bəşəriyyət geniş coğrafi sahəni əhatə edən ciddi çağırışla üzləşib.

Hazırkı vəziyyətin bir çox dövlətlərə və xalqların həyatına mənfi təsir göstərdiyini deyən Türkmənistan Prezidenti dünyanı bürümüş bu təhdidə qarşı mübarizədə koordinasiyalı addımların, həmçinin xalqlarımızın humanizm, qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirməsinin əhəmiyyətinə toxundu. Qurbanqulu Berdiməhəmmədov Türkmənistanda koronavirusla mübarizə istiqamətində görülən işlərdən danışdı. Bu vəziyyətdə ticari-iqtisadi əlaqələrin dayanıqlılığının təmin olunmasının və nəqliyyat əlaqəsinin fəaliyyətinin vacibliyini vurğulayan **Prezident Qurbanqulu BERDİMƏHƏMMƏDOV** dedi:

- Qeyd etmək istəyirəm ki, Türkmənistan və Azərbaycanın koordinasiya olunmuş addımları hesabına Xəzər dənizində Türkmənbaşı və Bakı limanları arasında gəmi əlaqəsi davam edir. Bu, böyük geoiqtisadi məkanda yük daşımaları baxımından çox vacib nəqliyyat dəhlizidir. Regional tərəfdaşlarla birgə fəaliyyət nəticəsində Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin normal fəaliyyəti təmin edilib.

"Biz ümumi tarixi olan qardaş ölkələr kimi malik olduğumuz yüksək mənəvi və sosial dəyərləri tam göstərməliyik", - deyən Türkmənistan Prezidenti bu çətin anların birgə dəf ediləcəyinə, ölkələrimiz arasında əməkdaşlıq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənəcəyinə əminliyini bildirdi.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:**

- Təşəkkür edirəm cənab Prezident. İndi isə söz verilir Macarıstanın Baş Naziri cənab Viktor Orbana. Buyurun.

**Macarıstanın Baş Naziri Viktor ORBAN** dedi:

- Hörmətli cənab prezidentlər, əziz dostlar. Sizi salamlayıram.

Mən dostum cənab İlham Əliyevə məni bu viodeokonfransa dəvət etdiyinə görə minnətdarlığımı bildirirəm. Cənab Prezident Ərdoğan, Türkiyənin maska hazırlamaq üçün bizə materiallar göndərdiyinə görə Sizə təşəkkürümü bildirirəm. Biz bu xeyirxahlığı heç vaxt unutmayacağıq. Cənab Prezident Əliyevə - mənim əziz dostuma Azərbaycan tərəfindən bizə göstərilən köməyə görə çox minnətdaram.

Baş Nazir Viktor Orban qeyd etdi ki, vaksinin olmaması pandemiyanın ciddi fəsadlar törətməsinə səbəb olacaq. Macarıstan hökumətinin başçısı pandemiyanın qarşısının alınmasında tibbi heyətin, avadanlıqların və qoruyucu vasitələrin əhəmiyyətindən danışdı, pandemiyanın Avropada yaratdığı ağır iqtisadi vəziyyət barədə məlumat verərək dedi:

- Avropanın iqtisadi vəziyyəti birmənalı deyil. Bir çox Avropa ölkələrinin müəssisələri ağır vəziyyətdədir və bu vəziyyətdə qalacaq. İşsizlik geniş miqyas alıb, problemlər bundan sonra da davam edəcək. Sənayenin müəyyən sahələri çöküb. Avropanın iqtisadi vəziyyəti indi elədir ki, Avropa dövlətləri külli miqdarda kredit götürməyə məcburdur. Böhrandan sonra ölkələrin borcları daha çox olacaq.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:**

- Təşəkkür edirəm cənab Baş Nazir. İndi isə söz verilir Türk Şurasının Baş katibi cənab Bağdad Amreyevə. Buyurun.

❖ ❖ ❖

**Türk Şurasının Baş katibi Bağdad AMREYEV** dedi:

- Cənab prezidentlər və Baş Nazir. İlk növbədə, Türk Şurasının üzvü olan dövlət başçılarını salamlayıram. Xüsusilə Türk Şurasının fəaliyyətdə olan sədri - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bugünkü tədbirin yüksək səviyyədə təşkilinə görə səmimi-qəlbdən dərin hörmət və ehtiramımı bildirmək istəyirəm.

Pandemiya bizim ölkələrə də təsir edib. Lakin xoşbəxtlikdən dünyanın başqa yerlərinə nisbətən vəziyyət o qədər də faciəvi deyil. Bu, onun nəticəsidir ki, virusla mübarizədə sizin qabaqlayıcı tədbirləriniz, qətiyyətli qərarlarınız daha böyük faciələrin qarşısını almağa imkan verdi. Bizim ölkələrimiz bir-birinə humanitar yardım göstərdi, o cümlədən tibbi avadanlığın və maskaların, qoruyucu eynəklərin və əlcəklərin, test dəstlərinin verilməsi baxımından. Xüsusən də vətəndaşların evakuasiyası ictimaiyyət tərəfindən müsbət qarşılandı. Bu vəziyyət göstərdi ki, Türk Şurası çərçivəsində səhiyyə sahəsində əməkdaşlığı genişləndirmək vacibdir.

Bağdad Amreyev pandemiyadan sonra dünyada yaranacaq iqtisadi böhranın qarşısının alınmasında Türk Şurasına üzv ölkələrin qarşılıqlı birgə fəaliyyətinin gücləndirilməsinin əhəmiyyətindən danışdı. O qeyd etdi ki, Türk Şurasının Bakı Bəyannaməsində əksini tapan birgə investisiya fondu yaratmaq barədə qərarın iqtisadi böhrandan sonrakı dövrdə iqtisadiyyatların bərpasında mühüm rol oynaya bilər.

❖ ❖ ❖

Zirvə görüşünün yekununda bir daha çıxış edən **Azərbaycan Prezidenti İlham ƏLİYEV** dedi:

- Təşəkkür edirəm, cənab Baş katib.

Hesab edirəm ki, çıxışlarda səslənən bütün təkliflər katiblik tərəfindən qeydə alınsın və ümumiləşdirilib, bütün ölkələrə razılaşdırma üçün təqdim edilsin. Əminəm ki, bu dəyərli təkliflər nəzərə alınacaqdır. Beləliklə, biz əməkdaşlığımızın növbəti mərhələsini uğurla davam etdirərək və koronavirusla mübarizədə birlik göstərərək bu bəlaya qalib gələcəyik.

Əziz qardaşlarımdan soruşmaq istərdim, əlavə hansısa məsələlər, suallar, təkliflər varsa, xahiş edirəm bildirin.

Əgər yoxdursa, onda icazə verin, mən yekun sözümü söyləyim və ondan sonra Bəyannamənin qəbul edilməsi nəzərdə tutulur.

- Hörmətli dostlar.

Bir daha əziz qardaşlarıma bizim təşəbbüsümüzü qəbul etdiklərinə və Zirvə görüşündə iştirak etdiklərinə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu gün çıxışlarda səslənən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizi daha da gücləndirəcəkdir. Eyni zamanda bu xəstəliyin mənfi təsirlərinin aradan qaldırılması üçün pandemiyadan sonrakı dövrdə iqtisadiyyat, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq üzrə səylərimizi daha da artırmağımız zəruridir.

Bizim həmrəyliyimiz və birliyimiz nümunəvi xarakter daşıyır. Bu, onu göstərir ki, biz yalnız xoş günlərdə deyil, çətin günlərdə də bir-birimizin yanındayıq. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq böyük önəm daşıyır. Biz digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırıq. Hesab edirəm ki, Zirvə görüşünün Yekun Bəyannaməsi bu əməkdaşlığa əhəmiyyətli töhfədir.

Hörmətli həmkarlar, ümidvaram ki, koronavirusla mübarizədə qalib gələcəyik və bu ağır vəziyyətdən az itkilərlə çıxacağıq. İndi isə gündəlikdə Bəyannamənin qəbul edilməsi durur. Bəyannamənin mətni razılaşdırılıb və beləliklə, Bəyannamə qəbul edildi.

Əziz dostlar, bir daha Zirvə görüşündə fəal iştirakınıza görə təşəkkürümü bildirirəm və Zirvə görüşünü bağlı elan edirəm. Sağ olun.

# Arif Cəfər oğlu İsmayılzadə



Azərbaycan elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Geologiya sahəsində tanınmış alim, Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, geologiya-mineralogiya elmləri doktoru Arif İsmayılzadə 2020-ci il aprelin 9-da ömrünün 83-cü ilində vəfat etmişdir.

Arif Cəfər oğlu İsmayılzadə 1937-ci il avqustun 14-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1954-1959-cu illərdə Azərbaycan Sənaye İnstitutunun Geoloji kəşfiyyat fakültəsində mühəndis-geoloq ixtisası üzrə ali təhsil almış, 1962-1965-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunun aspiranturasında oxumuşdur.

Əmək fəaliyyətinə 1959-cu ildən Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunda laborant kimi başlayan Arif İsmayılzadə 1965-1978-ci illərdə İnstitutun petrologiya laboratoriyasında kiçik elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır. O, 1978-1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasının "Geofizika" Elmi Mərkəzinin petromaqnetizm laboratoriyasının, 1982-1998-ci illərdə Akademiyanın Geologiya İnstitutunun dərinlik maqmatik prosesləri laboratoriyasının, 1998-ci ildən Geologiya və Geofizika İnstitutunun petrologiya və metallogeniya seksiyasının rəhbəri vəzifələrində işləmiş, 2007-2013-cü illərdə isə Milli Elmlər Akademiyasının Yer Elmləri Bölməsinin akademik-katibi olmuşdur.

Arif İsmayılzadə 1968-ci ildə geologiya-mineralogiya elmləri üzrə namizədlik və 1991-ci ildə doktorluq dissertasiyaları müdafiə etmiş, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2007-ci ildə həqiqi üzvü seçilmişdir.

Akademik Arif İsmayılzadə respublikada geologiya elminin inkişafına dəyərli töhfələr vermiş alimlərdəndir. Onun aktual geoloji problemləri əhatə edən, metallogeniya və petrologiya elmləri üzrə tədqiqatlarında yerin dərinliklərində baş verən proseslərin modelləşdirilməsi və filiz-maqmatik sistemlərin formalaşma qanunauyğunluğunun öyrənilməsi aparıcı yer tutur. Bu tədqiqatlar Kiçik Qafqazın inkişafının müxtəlif mərhələlərində Yer qabığı və mantiyanın qarşılıqlı təsirinin spesifikasını müəyyənləşdirməyə və metamorfik dəyişmə ardıcıllığını üzə çıxarmağa imkan vermişdir. Arif İsmayılzadə elmi fəaliyyətində regionun geodinamikasının tədqiqinə, filiz və neftəmələgəlmə proseslərinin vəhdəti məsələlərinə də xüsusi diqqət yetirmişdir.

Arif İsmayılzadənin uzunmüddətli araşdırmalarının nəticələri 170-dən artıq elmi məqalədə, məruzə və monoqrafiyalarda dolğun əksini tapmışdır. Səkkizcildlik fundamental "Azərbaycan geologiyası" əsərinin maqmatizm, tektonika və faydalı qazıntılara dair cildləri alimin sanballı tədqiqatları sırasında mühüm əhəmiyyətə malikdir. Arif İsmayılzadə Azərbaycan elmini dünyanın müxtəlif ölkələrində beynəlxalq simpozium, konfrans və konqreslərdəki çıxışları ilə layiqincə təmsil etmişdir. Bakı Dövlət Universitetinin Geologiya fakültəsinin faydalı qazıntılar kafedrasında ixtisas fənlərini tədris etmiş alimin yüksəkixtisaslı kadrların hazırlanmasında böyük əməyi vardır.

Akademik Arif İsmayılzadənin Azərbaycan elminin inkişafında xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Alim respublikanın Əməkdar geoloqu və Əməkdar elm xadimi fəxri adlarına layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Tanınmış tədqiqatçı alim, səmimi insan Arif Cəfər oğlu İsmayılzadənin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham Əliyev, Mehriban Əliyeva, Əli Əsədov Sahibə Qafarova, Samir Nuriyev, Eldar Əzizov, Fərəh Əliyeva, Ramiz Mehdiyev, Xoşbəxt Yusifzadə, İbrahim Quliyev, Akif Əlizadə, Vasif Babazadə, Fəxrəddin Qədirov***

# Milli Məclisin Gənclər və idman komitəsi insanları qanvermə aksiyasına qoşulmağa dəvət edir

Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin təşəbbüsü ilə adı çəkilən komitə səhhəti imkan verən hər kəsi təhlükəsizlik və gigiyenik qaydalara riayət etməklə qanvermə aksiyasına qoşulmağa çağırır.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, koronavirus pandemiyasının yaratdığı fəsadlardan biri də könüllü donorların sayında ciddi azalmaların olmasıdır. Təəssüflə bildirmək istəyirik ki, bütün qan qruplarına olan ehtiyac hazırda artmaqdadır. Bu günlərdə hər birimizin borcu dövlətimizin yanında olmaq və köməkliyimizi əsirgəməməkdir.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən başladılan və hazırda da dövlətimiz və xalqımız tərəfindən aparılan xeyirxah tədbirlərin davamı olaraq, özünü sağlam hiss edən, səhhəti qan verməyə imkan verən hər bir kəsdən Milli Hematologiya və Transfuziologiya Mərkəzi - Qan Bankına (Bakı şəhəri, Nəsimi rayonu, Mirəli Qaşqay küçəsi, 87) yaxınlaşaraq qan verməsini xahiş edirik.

Toplanmış qan qarşılıqsız olaraq irsi qan xəstələrinə və talassemiyalı vətəndaşlarımıza veriləcəkdir. Məlumat üçün bildiririk ki, Qan Bankında donorların təhlükəsiz şəraitdə qan verməsini təmin etmək məqsədilə girişdə bədən hərarətinin yoxlanılması üçün termal kamera yerləşdirilib. Donorlar gigiyenik vasitələr ilə təchiz edildikdən sonra minimum təmas olmaqla qan verməkdədirlər. Qan verən donorlara lazım gəldikdə qan vermə barədə arayışlar da verilir.

# *Operativ Qərargah:* "Rusiyada yaşayan və hazırda Azərbaycana qayıtmaq istəyən vətəndaşlarımızı karantin rejiminin qaydalarına əməl etməyə çağırırıq"

## Səfirlik və konsulluqlarda qeydiyyatdan keçmiş şəxslərin müəyyən qrafiklə Vətənə dönüşünün təmin olunması məsələsinə baxılacaq

*Əvvəli 1-ci səh.*

Yaranmış vəziyyətlə əlaqədar Rusiya Federasiyasında yaşayan və hazırda Azərbaycana qayıtmaq istəyən vətəndaşlarımızı karantin rejimi qaydalarına əməl etməyə, 20 aprel 2020-ci il tarixədək ölkəmizin Rusiya Federasiyasındakı səfirliyində və konsulluqlarında qeydiyyatdan keçməyə çağırırıq.

Hazırda Azərbaycanda xüsusi karantin rejimi tətbiq olunduğundan ölkə sərhədlərinin qarşıdakı müddətdə açılmasına dair qərar 20 aprel 2020-ci il tarixdən sonra COVID-19 zəminində mövcud vəziyyət təhlil edilərək veriləcək. Eləcə də ölkə daxilində karantin məqsədilə ayrılmış məntəqələrin vətəndaşları qəbul etmək imkanları və COVID-19 xəstəliyinin yayılma dinamikası nəzərə alınaraq səfirlik və konsulluqlarda qeydiyyatdan keçmiş şəxslərin müəyyən qrafiklə Vətənə dönüşünün təmin olunması məsələsinə baxılacaq.

Sərhədlər bağlı olduğu müddətdə yalnız vəfat etmiş Azərbaycan Respublikası vətəndaşının nəşinin bir nəfər yaxınının müşayiəti ilə (müşayiət edən şəxs Azərbaycana keçdikdən sonra karantində saxlanılmaqla) ölkəyə gətirilməsinə istisna hal kimi şərait yaradılacaq.

Qlobal pandemiya dövründə vətəndaşlarımızdan insanların sağlamlığı və təhlükəsizliyi naminə mövcud tələb və qaydalara əməl etmələri, sərhəd məntəqələrində toplaşmamaları, bununla da yaşadıqları ölkələrin karantin rejimini pozmamaları tələb olunur.

# Azərbaycan pospandemiya dövrünə də uğurla hazırlaşır

## Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər epidemiyanın yayılma səviyyəsini kəskin azaltmış və minimum itkilərlə qarşılaşmağımıza səbəb olmuşdur



Son dövrlər, xüsusən də 2019-cu ildə ölkənin sosial-iqtisadi həyatının bütün istiqamətlərində nailiyyətlər əldə olunmuşdur. Dövlət başçısının tapşırığı ilə bütün istiqamətlər üzrə hökumət tərəfindən həyata keçirilən tədbirlər ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynamışdır. Dünyada gedən proseslər, bölgədə olan mürəkkəb vəziyyət və digər problemlər fonunda bu nəticələrin əldə olunması doğrudan da Azərbaycan üçün mühüm nailiyyətdir.

Nazirlər Kabinetinin 2019-cu il üçün fəaliyyəti barədə hesabatı Milli Məclisdə geniş müzakirə olundu. Bir məqamı qeyd edim ki, Nazirlər Kabinetinin fəaliyyətini dəyərləndirmək bir çox ölkələrdə "CP" (Performance Capability) indeksindən istifadə olunur. Azərbaycan üçün bu indeks göstəricisi 2019-cu il üçün yüksəkdir. Bizim də hesabat haqqında qənaətimiz müsbət oldu.

Təqdim olunmuş hesabat struktur və məzmun baxımından əhatəlidir, inklüzivdir, yeni bölmələr əlavə edilib. Hesabatı təhlil edərkən tərəfimizdən əsasən 2 məqama fikir verilmişdir. 1. 2019-cu il üçün dövlət başçısı tərəfindən Nazirlər Kabineti qarşısında qoyulan hədəflərə çatılması və verilən tapşırıqların icrası. 2. Hesabatda təqdim edilmiş məlumatların rəy vermək üçün yeterliliyi.

2019-cu il yanvarın 11-də və il ərzində keçirilən müşavirələrdə dövlət başçısı cənab İlham Əliyev 2019-cu il üçün əsas iqtisadi hədəflərini müəyyən etmiş və onların icrası üçün müvafiq tapşırıqlar vermişdir. Qeyd etmək istərdim ki, dövlət başçısı tərəfindən aparılan sürətli və əhatəli sosial-iqtisadi islahatlar verilən tapşırıqların yerinə yetirilməsi üçün əlverişli şərait yaratmışdır.

Əsas hədəflər kimi makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, real sektorun inkişafı, iqtisadi artıma nail olunması və əhalinin pul gəlirlərinin artmasını göstərmək olar. Hesabatda da göstərildiyi kimi, ÜDM-in artması, qeyri-neft sektorunun inkişafı, qeyri-neft sənayesinin və qeyri-neft məhsulları ixracının əhəmiyyətli artması ümumi iqtisadi artımı təmin etmişdir. İllik inflyasiyanın hədəf diapazonunun mərkəzindən aşağı olması, manatın sabit məzənnəsinin qorunub saxlanılması əhalinin real gəlirlərini artırmış, maddi rifah halını yaxşılaşdırmış və beləliklə də makroiqtisadi sabitliyi daha möhkəmləndirməklə qoyulan hədəflərə nail olunmuşdur.

Digər hədəf iqtisadiyyatda şəffaflığın artırılması və kölgə iqtisadiyyatının həcminin azaldılması olmuşdur. Qanunvericilikdə edilmiş dəyişikliklər fonunda əmək müqavilələrinin sayının artması, əmək haqqı fondunun ÜDM-də payının, aktiv vergi ödəyicilərinin sayının və dövriyyəsinin artması mühüm nailiyyətlərdəndir.

Strateji ehtiyatlarımızın ÜDM-in həcmindən çox olması vacib göstəricidir və bu gün iqtisadiyyatımızı bir çox problemlərdən qoruyan çox mühüm amildir. Dövlət Neft Fondunun investisiya portfelinin gəlirliyinin 5.29%-ə çatması mühüm performans göstəricisi sayıla bilər.

İnfrastruktur layihələrinin icrası ilə bağlı verilən tapşırıqların da icrası zamanı planlaşdırılandan artıq işlərin görülməsi bu sahədə uğurların əldə edilməsi deməkdir. Məsələn, ölkədə qazlaşdırma səviyyəsinin 96%-ə çatması, avtomobil yollarının çəkilməsində 1000 km hədəf əvəzinə 1300 km yolların çəkilməsi, 300 artezian quyusu qazılması hədəfi əvəzinə 345 quyunun qazılması və s.

TANAP layihəsinin istismara verilməsi, qonşu ölkələrlə ticarət dövriyyəsinin xeyli artırılması qonşularla əlaqələrin inkişafı üçün dövlət başçısının verdiyi tapşırığın yerinə yetirilməsi baxımından mühüm göstərici sayılmalıdır. Rusiya ilə xarici ticarət dövriyyəmizin 25%, İranla 30% artması, Türkiyə ilə 4 milyard dollara çatması yaxşı göstəricilərdir.

Həyata keçirilən böyük həcmdə işlərlə yanaşı, hesabatda göstərilmiş bəzi makroiqtisadi göstəricilərin icra vəziyyətinin 2019-cu il üçün büdcə zərfində təqdim olunmuş proqnoz göstəricilərdən fərqlənməsi diqqətimizi çəkmişdir. Fikrimizcə, gələcəkdə iqtisadi proqnozlara nail olunmasında daha çox potensialın işə salınması faydalı ola bilərdi. Bu istiqamətdə dövlət başçısının da müvafiq tapşırıqları olmuşdur.

Eyni zamanda gələcəkdə hesabatda dövlət proqramlarının icrası vəziyyəti ilə bağlı daha ətraflı məlumatların verilməsi faydalı olardı. Bir çox konkret məsələlərin də həlli vacibdir. Məsələn, investisiya təşviqi sənədinin işləmə mexanizminin təkmilləşməsi sahibkarların daha çox özəl investisiya yatırmasına səbəb olar bilərdi. Vətəndaşlara verilmiş 1.4 milyon yeni nəsil şəxsiyyət vəsiqələrinə yazılmış elektron imzaların aktiv olmaması vətəndaşlarımızın evdən çıxmadan bir çox elektron xidmətlərdən istifadəsinə maneə olmaqdadır. Bu məsələnin təcili həlli vətəndaşlara məsafədən xidmət etməyə imkan yaradardı.

Dünyada koronovirus epidemiyasının yayılması və dünya bazarlarında neftin qiymətinin kəskin enməsi hökumətləri daha operativ və təxirəsalınmaz tədbirlər görməyə sövq etmişdir. Azərbaycan dövlətinin vətəndaşların sağlamlığını qorumaq və iqtisadiyyatda baş verə biləcək neqativ tendensiyanı qarşılamaq üçün atdığı addımlar hər birimiz tərəfindən yüksək qiymətləndirilir. Dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa rəhbərliyi ilə həyata keçirilən bu tədbirlər epidemiyanın yayılma səviyyəsini kəskin azaltmış və minimum itkilərlə qarşılaşmağımıza səbəb olmuşdur.

Azərbaycan həm də ÜDM-ə nisbətdə və öz ehtiyatları hesabına regionda ən çox sosial-iqtisadi dəstək proqramı elan edən bir ölkədir. Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargahın da fəaliyyəti tərəfimizdən yüksək qiymətləndirilir. Bu tədbirlərin həm də mühüm iqtisadi nəticələri olacaqdır. Belə ki, dünyada aparılmış təhlillərə görə, 10 günlük karantin sonradan 5% daha çox iş yerlərini açılmasına səbəb olacaqdır. Bu baxımdan atılan sərt məhdudlaşdırıcı addımlar insanların həyatını qorumaqla sonradan onların iqtisadi həyatında da mühüm rol oynayacaqdır.

Postkorona dövründə iqtisadi münasibətlərdə və idarəetmədə innovativ üsullar xüsusi əhəmiyyət kəsb edəcək. Eyni zamanda düşünürük ki, qanunverici orqanın hökumətlə sıx əməkdaşlığı çərçivəsində postepidemiya dövrü üçün innovativ qanunvericilik bazasının hazırlanması iqtisadi inkişaf sürətimizin bərpa olunmasına mühüm dəstək ola bilər. Xüsusilə də, mövcud problemlərin həllində yeni metodların, məsafədən idarəetmənin tətbiqi, rəqəmsal iqtisadiyyatın formalaşmasında, elektron ticarətin inkişafında yeni ideyaların reallaşması günün aktual tələblərindəndir. Postpandemiya dövründə texnologiyaların hökmranlığı başlayacaq. Bu dövr üçün indidən vaxt itirmədən texnoloji biliklərimizi, infrastrukturumuzu, qanunvericilik bazamızı daha də təkmilləşdirməliyik.

Prezident İlham Əliyevin apardığı sosial-iqtisadi islahatlar əslində Azərbaycanı bu dövrə hazırlamaqdadır. İqtisadi islahatların əsas hədəflərindən biri innovativ iqtisadiyyat qurmaq, insan kapitalına və texnologiyalara əsaslanan sosial iqtisadi münasibətlərin formalaşmasıdır. Əminəm ki, biz bu yolla getməklə və hər birimiz öz üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməklə qarşıya qoyulan hədəflərə çatacağıq.

***Tahir MİRKİŞİLİ,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri***

# İƏT Səhiyyə Nazirləri İcraiyyə Komitəsinin koronavirusla bağlı virtual iclası keçirilib

**Aprelin 9-da İslam Ölkələri Təşkilatı (İƏT) və hazırda təşkilata sədrlik edən Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) hökumətinin təşkilatçılığı ilə İƏT Səhiyyə Nazirləri İcraiyyə Komitəsinin koronavirus pandemiyası ilə əlaqədar videokonfrans vasitəsilə təcili iclası keçirilib. AZƏRTAC xəbər verir ki, bu barədə təşkilatın Ciddə şəhərində yerləşən mənzil-qərargahından məlumat verilib.**

İclasda üzv ölkələrin nazirləri koronavirus pandemiyası ilə bağlı informasiya mübadiləsi aparıb, COVID-19 virusunun yayılmasına qarşı əlavə tədbirləri müzakirə ediblər. Qeyd olunub ki, İslam ölkələri arasında humanitar fəlakətlər dövründə sıx əməkdaşlıq və qarşılıqlı fəaliyyət təşkilatın Nizamnaməsinin əsas müddəalarından biridir.

Nazirlər qeyd ediblər ki, COVID-19 pandemiyası İƏT-ə üzv ölkələrdə milli, regional səviyyədə daha təsirli tədbirlərin görülməsini, xüsusən əhalinin aztəminatlı təbəqəsinin qorunmasını tələb edir. Onlar pandemiya ilə mübarizədə həkimlərin və tibb personalının əməyini xüsusi olaraq vurğulayıblar.

Virtual iclasda dini və icma liderlərinin, habelə ilahiyyatçıların koronavirus pandemiyasına qarşı əhalinin maarifləndirilməsi sahəsində rolu da təqdir edilib. İslam Məşvərət Qrupunun (IAG) dini icmalar, İƏT Baş Katibliyi, Beynəlxalq İslam Fiqh Akademiyası, İslam İnkişaf Bankı və Əl-Əzhar Əş-Şərif Universiteti ilə birgə fəaliyyəti də yüksək qiymətləndirilib.

İcraiyyə Komitəsinin iclasında üzv ölkələrə, Ümumdünya Səhiyyə Təşkilatına, UNICEF və Vaksin Alyansına (GAVI) COVID-19 əleyhinə vaksinin tez bir zamanda tapılması üzrə çağırış edilib, üzv ölkələrinə alyansın iyunda Londonda keçiriləcək iclasında fəal iştirak etmək tövsiyə olunub. Bundan başqa, xeyriyyə təşkilatları, filantroplar və digər beynəlxalq strukturların yoxsul ölkələrə humanitar yardımı artırmalarının zəruriliyi qeyd edilib.

Sonda vurğulanıb ki, təşkilata üzv ölkələr informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə, pandemiya ilə bağlı vəziyyət barədə dəqiq məlumatların yayılmasına diqqət yetirməli, öz aralarında informasiya mübadiləsi aparmalı, insanların yanlış məlumatlandırılmasının qarşısını almalıdırlar.

İƏT Səhiyyə Nazirləri İcraiyyə Komitəsinə Səudiyyə Ərəbistanı, BƏƏ, Maldiv, Pakistan, Mavritaniya, Çad, Türkiyə, Misir, Malayziya, İndoneziya və Sudan daxildir. Komitənin iclasında İƏT-in strukturları, o cümlədən Elmi və Texnoloji Əməkdaşlıq Daimi Komitəsi (COMTECH), İslam Ölkələri Statistika, Tədqiqatlar, Treninq Mərkəzi (SESRIC), İslam İnkişaf Bankı və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) iştirak ediblər.

## Biz birlikdə güclüyük!

# 4. Əsl azərbaycanlı mənəviyyatı

*Əvvəli 1-ci səh.*

**Cənab İlham Əliyev də bu ənənəni yaşadır və uğurla davam etdirir!**

**Çünki bu, həm də əsl azərbaycanlı mənəviyyatı, əsl dövlət rəhbərinə xas keyfiyyətdir!**

*Prezident İlham Əliyev koronavirus sınağı dövründə xalqımıza məxsus bir sıra mənəvi keyfiyyətlərin üzə çıxmasının, özünü yenidən nümayiş etdirməsinin də təşəbbüsçüsü oldu!*

Bu barədə bir qədər sonra...

❖ ❖ ❖

**Adətən ordu öz sərkərdəsinə baxıb düzlənir!**

**İlham Əliyevin məsələyə ciddi reaksiya verməsi, insanların sağlamlığının qorunmasına həssaslıqla, can yanğısı ilə yanaşması xalqını və millətini sevən hər bir azərbaycanlıya da sirayət etdi.**

**Bu ali nümunədən dərhal çoxsaylı nümunələr yarandı!**

**Azərbaycan xalqı bir anda sınanmış oğlunun səsinə səs verdi!**

**Onun atdığı hər bir addım minlərlə əks-səda doğurdu!**

**Qısa vaxtda gördüyü işlər analoji mübarizə aparanlar üçün nümunəyə çevrildi:**

■ Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əlaqə yaradıldı, dövlət başçısının sərəncamı ilə quruma kömək məqsədilə 5 mln. dollar yardım edildi;

■ Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılaraq onun qarşısına məsul vəzifələr qoyuldu;

■ Sərhədlər bağlandı, karantin məntəqələri təşkil olundu, təyyarə uçuşları dayandırıldı;

■ Ölkə xaricində qalan azərbaycanlıların gətirilməsi üçün çarter reysləri açıldı;

■ Xəstələrə qulluq edən həkimlərin və digər tibb personalının əməkhaqları 3-5 qat artırıldı;

■ Koronavirusla mübarizə fondu yaradıldı, ilk olaraq cənab İlham Əliyev ora birillik əməkhaqqını keçirdi;

■ Bu xeyirxah missiyanı Birinci vitse-prezident Mehriban xanım Əliyeva da davam etdirdi;

■ Öz rəhbərindən nümunə götürən xalq mənəvi dəyərlərin yaşadılması yolunun davamçısına çevrildi...

❖ ❖ ❖

**Artıq dünyada koronavirusla insanlar arasında şiddətli müharibə gedir!**

**Bu müharibədə, sözün həqiqi mənasında, ölənlər də var!**

**Müharibənin ön cəbhəsində vuruşanlar isə tibb işçiləridir!**

**Həkimlər, tibb bacıları, texniki heyət və digərləri...**

*Dincəlmək, yorulmaq, hətta bəzən yatmaq nə olduğunu bilmədən xəstələrin sağaldılması üçün gecə-gündüz çalışırlar...*

*Çünki onlar bilirlər ki, bir xəstəni sağaltmaqla həm də onlarla insanı yoluxmadan qoruyurlar...*

**Bu gün müşahidə olunan həkim fədakarlığı Azərbaycan tibb işçisinə də xas olan ən bariz keyfiyyətlərdəndir!**

Dövlət başçısı "Yeni klinika"nın açılışında bunu xüsusi vurğuladı.

❖ ❖ ❖

**"Koronavirus müharibəsi"nin ikinci səngərində Azərbaycan polisi dayanır!**

**Prezidentin ilk çağırışından öz postunda, küçə və yollarda ayaq üstədir!**

**Təkcə asayişin keşiyini çəkmir!**

**Həm də ona tapşırılan yeni vəzifələrin - xüsusi karantin rejiminin tələblərini yerinə yetirməklə məşğuldur!**

Həkimlərdən fərqli olaraq, onların heç də hamısının konkret iş yeri belə bilinmir!

Bilinən odur ki, Azərbaycan polisi tutduğu vəzifədən asılı olmayaraq daha kabinetlərdə oturmur!

**İş saatı ilə hesablaşmayaraq daim ayaqdadır:**

■ Özünü virusdan qorumayanı - başa salır!

■ Məsuliyyəti unudanları - məsuliyyətli davranmağa çağırır!

■ Köməyə ehtiyac duyanlara - əl uzadır, dayaq olur!



■ Qanunu və sosial izolyasiya tələblərini pozanları qanuna dəvət edir!

**Bir sözlə, bu günlərdə Azərbaycan polisi öz mənəviyyatı ilə yüksəkdə dayandığını sübut edir!**

❖ ❖ ❖

Tale azərbaycanlıları da müxtəlif səbəblər üzündən dünyanın müxtəlif ölkələrinə "səpələyib".

Müxtəlif sahələrdə çalışan bu insanlardan diaspor hərəkatında iştirak edəni də var, etməyəni də!

Onlardan razı qaldıqlarımız da var, qalmadıqlarımız da!

**"Koronavirus müharibəsi" sanki dünya azərbaycanlıları üçün də bir məhək daşına çevrildi!**

**Bu dar günlərdə Azərbaycan mənəviyyatı özünü parlaq şəkildə büruzə verdi!**

*Dünyanın bir çox ölkələrində yaşayan azərbaycanlılar sosial şəbəkələrə çıxaraq vətənə dönməkdə çətinlik çəkən, aeroportlarda qalan həmvətənlilərinə öz köməklərini təklif etdilər!*

*Boş evlərində qalmağa çağırdılar, yaşadıqları evlərdə özləri ilə birgə yerləşdirə, tikələrini yarı bölə biləcəklərini söylədilər!*

*Bir sözlə, bacardıqlarını edəcəklərini bildirməklə ünvanlarını, telefon nömrələrini qoydular!*

**Azərbaycan Prezidentinin təşəbbüsü ilə respublikamızda yaradılan koronavirusla mübarizə fonduna vəsait köçürənlər də çox oldu!**

**Azərbaycanlı mənəviyyatı çətin gündə köməksiz qalana kömək etmək prinsipini qoruduğunu bir daha əyani şəkildə nümayiş etdirdi.**

❖ ❖ ❖

**Azərbaycan sahibkarları da sınaqdan üzüağ çıxdılar!**

Söhbət onların fonda köçürdükləri vəsaitdən getmir!

Əlbəttə, sahibkarlarımız burada da fərqləndilər!

Prezidentimiz başqa ölkələrdə müxtəlif səbəblərdən ləngiyib qalan, habelə təhsil alan tələbələrin və başqalarının qayğısına qaldı, çarter reysləri təşkil etdirərək Vətənə qayıtmalarına kömək göstərdi!

*Belələri nə az, nə çox - on min nəfərdən artıq idi.*

*Təhlükəsizlik tədbirləri xaricdən gələnlərin karantin dövründə izolyasiyaya alınmasını tələb edirdi!*

Xəstəxanalarda isə o qədər yerimiz yox idi!

Həm də xəstəxana yoluxmuşları müalicə edəcəkdi.

**Bu məqamda sahibkarlarımız qəlb genişliyi göstərdilər: hotellərin, istirahət məkanlarının qapılarını geniş açdılar, gələnlərə yer və yemək verdilər!**

**Belə bir qonaqpərvərlik də Azərbaycan xalqının mənəvi dəyərlərindəndir!**

❖ ❖ ❖

Bu yerdə Azərbaycan əməkçisini də unutmayaq!

Kənd təsərrüfatında işlər ara vermir, bol məhsulun bünövrəsi qoyulur!

Elə sahələr var ki, orada fasiləyə yol vermək, vaxt itirmək olmaz!

Axı işlər yavaşıya bilər, amma iflic vəziyyətinə düşməli deyil!

Xüsusən kənd təsərrüfatı, neftçıxarma sənayesi və digərləri.

Dəniz neftçiləri adətən on beş günlük növbəyə gedir!

Karantin dövründə Neft Daşlarına yeni növbənin göndərilməsi riskli sayılır. Çünki yoluxma 14-21 gün gizli şəkildə qala bilir.

Təcrübəli neftçilər, nadir mütəxəssislər az olduğundan onları qorumaq da vacibdir!

**Beləliklə, dəniz neftçiləri böyük fədakarlıq göstərdilər: onlar növbəni dəyişmədən fasiləsiz işləyəcəkləri barədə qərar qəbul etdilər!**

❖ ❖ ❖

Cənab İlham Əliyev 2020-ci ili "Könüllülər ili" elan edib.

Bu qərar könüllülər hərəkatına yeni vüsət verib.

Eyni zamanda könüllülər üçün təzə fəaliyyət sahəsi də açılıb. Dövlət xüsusi risk qrupuna daxil olan ahıl şəxsləri qorumaq, eyni zamanda, qayğıdan kənarda saxlamamaq üçün könüllülərə çağırışla müraciət etdi!

**Azərbaycan gəncləri dövlətin səsinə səs verərək tənha insanlara yardım göstərmək üçün fəaliyyətə başladılar.**

**Belə bir addım Azərbaycan gəncinin zəngin mənəviyyatından da xəbər verir.**

❖ ❖ ❖

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva "Yeni klinika"nın açılışını etdilər.

Vaxtında tikilən, ən müasir cihaz və avadanlıqlar, laboratoriyalarla təchiz edilən yeni tibb müəssisəsi dövlət başçısının qərarı ilə ilkin olaraq koronavirus xəstələrinin müalicəsinə yönəldildi.

Bu, xəstəliyə qarşı mübarizədə effektli addım sayılır.

**Açılış mərasimində cənab İlham Əliyev indiki dövrə uyğun 3 çağırış da səsləndirdi: "Biz birlikdə güclüyük!", "Azərbaycan həkimlərinə eşq olsun!", "Evdə qal, Azərbaycan!"**

*Hazırkı məqamda həyati əhəmiyyət kəsb edən bu çağırışlar həm də dövlətin xalqa qayğısından və Azərbaycan xalqının zəngin mənəvi dəyərlərindən də xəbər verir.*

**Bəxtiyar SADIQOV**

# Ölkə vətəndaşlarının sağlamlığına həssas münasibət və rəhbər diqqəti

Vətəndaşların layiqli həyat şəraitinin, onların təhlükəsizliyinin təmin edilməsi və hazırkı qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir.

Ümumdünya Səhiyyə Təşkilatının ekspertlərinin qeyd etdiyi kimi, Azərbaycan hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. Azərbaycanda ilk günlərdən koronavirusla mübarizə məqsədilə atılan qabaqlayıcı addım sosial izolyasiya tədbirləri oldu.

İnsanların bir-biri ilə yaxın əlaqələrini minimuma endirmək, bununla da infeksiyaya yoluxmanın sürətini azaltmaq məqsədilə ölkə ərazisindəki xüsusi rejim dövrü aprelin 20-dək gücləndirildi. Aprelin 5-dən Nazirlər Kabineti yanında Operativ Qərargahın əhalinin həyat və sağlamlığının qorunmasını, dövlət qurumlarının və həyat təminatı obyektlərinin fasiləsiz işini, habelə yaranmış vəziyyətdə iqtisadi subyektlərin zəruri həddə fəaliyyətini təmin etmək məqsədilə ölkədə hərəkət məhdudiyyətlərinin tətbiqi ilə bağlı qərarı qüvvəyə mindi. Hazırda insanların evlərindən çıxışına yalnız təxirəsalınmaz tibbi yardıma zərurət olduqda, həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda, fəaliyyətinə icazə verilən pərakəndə satış və əhaliyə xidmət göstərən obyektlərə gedildikdə, məişət tullantılarının atılması hallarında, eləcə də xüsusi rejim dövründə fəaliyyət göstərən təşkilatlarda xidməti vəzifələrini icra etmək məqsədilə icazə verilir. Ölkə daxilində gediş-gəlişin məhdudlaşdırılması, Bakıda metronun bağlanması kimi tədbirlər məhz vətəndaşların bu virusdan qorunmasına xidmət edir.

Koronavirus pandemiyası ilə əlaqədar bütün ölkələrdə tibbi ləvazimat və qoruyucu vasitələrin, o cümlədən maskanın böyük qıtlığı yaşanır. İstehsalçı ölkələr isə tibbi maska ixracını dayandırmaqla yanaşı, istehsal avadanlığı və xammalın ixracını da saxlamaq məcburiyyətində qalıblar. Koronavirus pandemiyasının qarşısının alınması ilə bağlı Azərbaycanda həyata keçirilən bütün işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Ölkə başçısının tapşırığına əsasən aidiyyəti dövlət qurumları qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın Azərbaycana gətirilməsinə nail oldular. Bu istiqamətdə atılan bütün addımların nəticəsi olaraq aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı keçirildi.

Açılışda iştirak edən Prezident İlham Əliyev dedi: "Bu gün ölkəmizdə tibbi maska istehsalı başlayır. Bu, çox əlamətdar hadisədir. Çünki indi dünyanın bir çox ölkələrində tibbi maska çatışmazlığı var, o cümlədən Azərbaycanda və biz bu sahədə daim idxaldan asılı idik. Amma indiki şəraiti nəzərə alaraq qısa müddətdə, cəmi iki həftə ərzində yerli istehsal təşkil edildi. Burada sahibkarların böyük rolu vardır, eyni zamanda Azərbaycan dövləti də öz maliyyə dəstəyini göstərmişdir. Beləliklə, qısa müddət ərzində yeni müasir istehsalat sahəsi yaradılmışdır və bu, bizə imkan verəcək ki, özümüzü tibbi maskalarla böyük dərəcədə təmin edək".

"Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan müəssisə Sumqayıt Kimya Sənaye Parkının ərazisində müvafiq yerlə təmin edilib və ona Sənaye Parkının rezidenti statusu verilib. Bu status müəssisəyə sənaye parklarına tətbiq edilən güzəştlərdən faydalanmağa zəmin yaradıb. İstehsalçıya İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə 1,2 mln. manat güzəştli kredit ayrılıb.

*Ardı 5-ci səh.*

# Lider-xalq birliyinin təcəssümü

## Vətəndaşlar koronavirusla mübarizə sahəsində görülən tədbirlərə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirir, ən səmimi arzularını çatdırırlar

*Əvvəli 1-ci səh.*

Sivil dünyanın tərkibi olan Azərbaycan beynəlxalq aləmə açıq ölkədir. Elə buna görə də fevral ayında koronavirusun ilk nişanəsi ölkəmizdə də göründü. Ancaq Azərbaycan dövlətinin vaxtında həyata keçirdiyi qabaqlayıcı tədbirlər, Prezident İlham Əliyevin problemi diqqət mərkəzində saxlaması koronavirus infeksiyasının respublikamızda faciəvi nəticələrə səbəb olmasının qarşısını aldı. Mart və aprel aylarında isə virusun yayılmasının qarşısını almaq üçün təxirəsalınmaz və səmərəli tədbirlər həyata keçirildi. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən sərəncamlar imzalandı. Atılan addımlar, verilən qərarlar həm virusun yayılmasının qarşısının alınması, həm də vətəndaşların sosial rifahı kimi məsələləri əhatə etdi.

### "Biz birlikdə güclüyük!" çağırışı ölkəmizin zəfər simfoniyası olacaq

Koronavirusla mübarizə istiqamətində atılan bütün addımlar respublika ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılanır. Ayrı-ayrı vətəndaşlar Prezident İlham Əliyevə ünvanladıqları məktublarında həyata keçirilən bütün tədbirləri yüksək qiymətləndirərək dövlət başçısına minnətdarlıqlarını bildirir, ən səmimi arzularını ifadə edirlər.

Salyan rayonunun Qarabağlı kəndinin sakinləri adından **Vüqar Mürsəlov, Sarxan Muradov** və **Zahir Abbasov** dünyanı cənginə alan koronavirusun yayılmasının qarşısının alınması üçün görülən tədbirlərə görə Prezidentə təşəkkür edərək yazırlar: "Hər zaman xalqın yanında olmağınız və həyata keçirdiyiniz sosial siyasətiniz bu reallığı tam əks etdirir. Ölkəmizi müxtəlif təhdidlərdən qoruyan, onun davamlı və böyük uğurlar əldə etməsinə imkan yaradan mühüm səbəblərdən biri məhz liderlə xalq arasında olan bağlılıqdır. Bəli, bu, lider-xalq birliyinin təcəssümü və təzahürüdür. Lider ən kritik vaxtlarda öz vətəndaşının yanında, vətəndaş isə öz dövlətinin, liderinin yanındadır. Cənab Prezident, Sizin "Biz birlikdə güclüyük!" çağırışınız uzun illər ölkəmizin zəfər simfoniyası olacaqdır. Allah Sizi, ailənizi və xalqımızı qorusun".

Ağdam rayonunun Quzanlı qəsəbəsinin sakini **Hacıağa Hacıyev** ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizənin çox yüksək səviyyədə təşkil edildiyini, dövlətimiz tərəfindən qəbul edilən mükəmməl qərarların müsbət nəticə verəcəyini bildirərək yazır: "Hörmətli cənab Prezident, açılışında iştirak etdiyiniz "Yeni klinika" tibb müəssisəsini pandemiya ilə mübarizə məqsədilə xalqımızın xidmətinə verməyiniz əhalinin sağlamlığının qorunmasına yüksək diqqət göstərməyinizin bariz nümunəsidir".

### Müdrik rəhbərliyinizlə tezliklə bu bəladan xilas olacağıq

"Həmişə olduğu kimi, bu çətin günlərdə də xalqın yanında olduğunuza, xalqa qayğı göstərdiyinizə görə şəxsən öz adımdan və ailəmin adından Sizə dərin minnətdarlığımı bildirirəm". Bunu isə Bakının Nizami rayonundan **Samir Abdullayev** yazır. Onun məktubunda qeyd olunur ki, "Yeni klinika" tibb müəssisəsinin koronavirusa yoluxan xəstələrin müalicəsi üçün istifadəyə verilməsi, tibbi maska istehsalı müəssisəsinin açılışı Prezidentin xalqın yanında olmağının, daim vətəndaşları düşünməyinin sübutudur. "Bizlər də həmişə Sizin yanınızdayıq, Sizin əsgərlərinizik. Allah Sizi Azərbaycan xalqına çox görməsin", - deyə Samir Abdullayev yazır.

Lənkəran şəhər sakini **Nurlan İbadov** məktubunda qeyd edir ki, Azərbaycanın gündən-günə inkişaf etməsi, dünya dövlətləri arasında nüfuzunun artması istiqamətində gördüyünüz işlərin miqyası çox böyükdür və bu işlər xalqımız, o cümlədən lənkəranlılar tərəfindən minnətdarlıqla qarşılanır. "Dünyada yayılmış koronavirus pandemiyası ölkəmizdən də yan keçmədi. Sizin ölkəmizdə epidemiyanın geniş yayılmasının qarşısının alınması ilə bağlı verdiyiniz tapşırıqlar layiqincə yerinə yetirilir, vətəndaşlara diqqət və qayğı göstərilir. Bir vətəndaş olaraq əminəm ki, Sizin müdrik rəhbərliyinizlə biz tezliklə bu bəladan xilas olacağıq. Biz həmişə Sizinləyik. Əziz Prezidentimiz, ölkə vətəndaşlarının sağlamlığının qorunması istiqamətində gördüyünüz işlərə görə bir gənc olaraq Sizə təşəkkür edirəm", - deyə o məktubunda bildirir.

### Bir zabit kimi Sizin əmr və göstərişlərinizi gözləyirəm

Astaradan olan ehtiyatda olan zabit **Rəşad Həsənov** Prezidentə məktubunda qeyd edir ki, xalqımız tezliklə qarşıya qoyulan bütün məqsədlərə çatacaq: "Sizin nəzarətiniz və göstərişiniz ilə ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər hər birimizdə bu virusa birlikdə qalib gələcəyimizə böyük ümid yaradıb. İnanıram ki, xalqımız tezliklə qarşıya qoyulan bütün məqsədlərə çatacaqdır. Çünki biz birlikdə güclüyük.

Ehtiyatda olan bir zabit kimi Sizin əmr və göstərişlərinizi gözləyirəm. Pandemiyaya qarşı mübarizədə Sizə dəstək olmağa hər zaman hazıram. Görülən böyük işlərə görə şəxsən öz adımdan və ailəmin adından Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi və ailənizi qorusun".

### Siz daim bizi düşünürsünüz

Masallı rayonu, Hişkədərə kənd sakinləri **Məhbubə Şahbazova, İlham Ağayev** və **Şahruğ Ağayev** də Prezident İlham Əliyevə təşəkkür məktubu göndəriblər. Məktubda yazılır: "Möhtərəm cənab Prezident. Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirakınız bir daha göstərdi ki, Siz hər bir Azərbaycan vətəndaşının sağlamlığını təmin etmək, həyatımızı qorumaq üçün bütün tədbirləri görürsünüz. Siz daim bizi düşünürsünüz.

İnanırıq ki, bütün dünyanı bürümüş koronavirus bəlası tezliklə bitəcək, Sizin səyləriniz nəticəsində doğma Azərbaycanımız bu sınaqdan daha az ziyanla çıxacaqdır. Dövlətçiliyimizin daha da möhkəmlənməsi istiqamətində fəaliyyətinizdə Sizə cansağlığı, uğurlar arzulayırıq. Allah Sizi qorusun, daim var olun, möhtərəm Cənab Prezident!"

"Sizin xalqımız və millətimiz üçün necə dəyərli işlər gördüyünüzün bir daha şahidi olduq. Dünyada tüğyan edən və insanları qorxuya salan koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması üçün gördüyünüz tədbirlər həyati əhəmiyyətlidir. Eyni zamanda Sizin bu məsələləri diqqətiniz mərkəzində saxlamağınız və təcili tədbirlər görməyiniz nəticəsində bu pandemiyanın ölkəmizdə yayılması minimum həddədir". Bunu isə Cəlilabad rayonu, Üçtəpə kənd sakini Nahid Yarıyev yazır. Ölkə başçısına və ailə üzvlərinə möhkəm cansağlığı, uzun ömür arzulayan Nahid Yarıyev əmin olduğunu bildirir ki, Prezidentin fədakar əməyi nəticəsində xalqımız bu bəladan da minimum itki ilə çıxacaq: "Bütün xalqımız kimi, ailəmiz də bu mübarizədə Sizinlədir. Möhtərəm cənab Prezident, çox sevindirici haldır ki, tarix Azərbaycanımızı xoşbəxt gələcəyə aparmaq missiyasını məhz Sizə həvalə edib".

### Dəyərli tövsiyələrinizi və təşəbbüslərinizi dəstəkləyirik

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, general-polkovnik **Tofiq Ağahüseynov** da Prezident İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb. Veteran hərbçi yazır: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, koronavirusa qarşı mübarizə sahəsində imzaladığınız sərəncamlarınızı, sosial həmrəylik nümayiş etdirilməsi barədə dəyərli tövsiyələrinizi və təşəbbüslərinizi dəstəkləyirik.

Rəhbərliyinizlə vaxtında görülmüş operativ və təxirəsalınmaz tədbirlər nəticəsində hazırda respublikamızda koronavirus pandemiyasına qarşı səmərəli mübarizə aparılır. Dövlətimiz bu gün də əhalinin sağlamlığını qorumaq, koronavirusun yayılmasını önləmək üçün səylərini davam etdirir. Xalqımızın bu bəladan minimum zərərlə xilas olacağına inanırıq.

Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Vətənimiz və xalqımız üçün gördüyünüz bütün işlərə, yorulmaz fəaliyyətinizə görə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti adından Sizə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığımızı bildiririk. Əminik ki, koronavirusla mübarizə çərçivəsində atdığınız qətiyyətli və humanist addımlar öz dəyərli töhfəsini verəcəkdir".

### Siz xalqımıza dəstək olduğunuz kimi, xalqımız da hər zaman Sizə dəstəkdir

Dünyanı bürüyən koronavirus pandemiyası ilə mübarizə sahəsində ölkəmizdə görülən işlərin təqdirəlayiq olduğunu bildirən Masallı rayon sakinləri **Azər Soltanov, Adil Fərzullayev** və **Güllübəyim Rəhimova** da Prezidentə təşəkkür məktubu yazıblar. Məktubda deyilir: "Virusun ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər üçün böyük məbləğdə vəsaitin ayrılması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi bu məsələyə necə ciddi yanaşıldığını göstərir. Bir neçə gün bundan əvvəl Sizin iştirakınızla tibbi maska istehsal edən müəssisənin istifadəyə verilməsi koronavirusla mübarizə sahəsində növbəti addım oldu. Qısa müddətdə qurulan bu müəssisə heç şübhəsiz ki, ölkəmizdə tibbi maska qıtlığını aradan qaldıracaqdır.

Əziz Prezidentimiz, böyük bir bəla olan koronavirusun kütləvi yayılmasının qarşısını almaq məqsədilə görülən işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Siz xalqımıza dəstək olduğunuz kimi, xalqımız da hər zaman Sizə dəstəkdir. Siz dediyiniz kimi, "Biz birlikdə güclüyük!"

### Qətiyyətli mövqeyinizə görə Azərbaycanı daim uğur gözləyəcək

"Mən Sizinlə qürur duyuram. Siz bir daha sübut etdiniz ki, əsas vəzifəniz xalqımızı, dövlətimizi qorumaqdır. Çətin günlərə qalib gəlmək üçün Siz var gücünüzlə çalışır, mümkün olan hər şeyi edirsiniz". Bunu Şəmkir sakini **Seymur Daşdəmirov** yazır. "Sizin qətiyyətli mövqeyinizə görə Azərbaycanı daim uğur gözləyəcəkdir. Bizim qayğımıza qaldığınıza, yorulmadan çalışdığınıza görə çox sağ olun. Allah bütün işlərinizdə köməyiniz olsun", - deyə o bildirir.

Şirvan şəhərindən **Ramin Şıxəliyev** Prezidentə xitabən yazır ki, dünyanı lərzəyə salan koronavirus pandemiyasından ölkəmizin qurtulması yolunda Sizi özümüzə bayraqdar, xilaskar görürük: "Sizin rəhbərliyinizlə xalqımız bir çox sınaqlardan, imtahanlardan alnıaçıq, üzüağ çıxıb. Bu bəladan da tezliklə qurtulacağımıza böyük inamımız var. Cənab Prezident, Sizin "Biz birlikdə güclüyük!" şüarınız xalqımızın həmrəyliyinə, birliyinə sanki yeni parlaq çalarlar gətirdi. İnşallah, elə bu birliyin və gücün sayəsində də koronavirusa qalib gələcəyik".

### Sizin rəhbərliyinizlə bu ağır vəziyyətdən az itkilərlə çıxacağıq

Daşkəsən rayonu, Kəmərqaya kəndindən **İlham Rzayev** və **Qurban Səfərov** də Prezident İlham Əliyevə səmimi təşəkkürlərini ifadə ediblər. Onların məktubunda deyilir: "Möhtərəm cənab Prezident. İnsanların sağlamlığını, təhlükəsizliyini, rahatlığını və rifahını hər şeydən üstün tutduğunuza görə Sizə minnətdarıq. Azərbaycan vətəndaşlarına göstərdiyiniz qayğı ilə bunu bir daha nümayiş etdirdiniz.

Daşkəsən rayonunun bütün sakinləri koronavirus pandemiyasının yayılmasının qarşısının alınması ilə bağlı görülən tədbirləri dəstəkləyirlər. Əminik ki, Sizin rəhbərliyinizlə bu ağır vəziyyətdən az itkilərlə çıxa biləcək, həmrəylimiz sayəsində bu virusa qalib gələcəyik".

Ağcabədi rayonu, Taxtakörpü qəsəbəsində məskunlaşan Laçın rayonundan olan məcburi köçkünlər **Mehdi Axundov, Maqsud Məmmədov, Səbuhi Şirinov, Vidadi Rüstəmov** və **Əli İmranov** yazırlar: "Dünya iqtisadiyyatının tənəzzül dövrü yaşadığı bir vaxtda vətəndaşlara, xüsusilə məcburi köçkünlərə göstərdiyiniz diqqət və qayğı əsl fədakarlıq nümunəsidir. Qəbul etdiyiniz qərarlar, verdiyiniz sərəncamlar sayəsində insanlar yaranan problemlərin öhdəsindən asanlıqla gəlirlər.

Belə qayğılı günlərdə bir qrup məcburi köçkünün evlə təmin olunması sevincimizə səbəb oldu. Bizə göstərdiyiniz qayğıya görə Sizə minnətdarlığımızı bildirir, uzun ömür, cansağlığı, müstəqil Azərbaycanımızın inkişafı naminə işlərinizdə uğurlar diləyirik".

### Sizinlə fəxr edirik

Xəzər rayonu, Binə qəsəbəsi sakini **Ramin Rzayev** də Prezident İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb. İlham Əliyevin xalqımız və onun sağlamlığının qorunması üçün əlindən gələni etdiyini bildirən Ramin Rzayev daha sonra yazır: "Eyni zamanda bu çətin dövrdə əhalinin aztəminatlı təbəqəsini də yaddan çıxarmırsınız. Karantin rejiminin tətbiqi ilə əlaqədar işsiz qalan və ehtiyac içərisində yaşayan insanlara dövlətimiz tərəfindən maddi dəstək göstərilir. Bu həssas və qayğıkeş münasibətə görə biz Sizinlə fəxr edir, Sizə dərin minnətdarlığımızı bildiririk. Nə qədər ki, Siz varsınız, bu xalqın kürəyi yerə dəyməz. Ulu Tanrı Sizi qorusun".

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

**Biz birlikdə güclüyük!**

# Ölkə vətəndaşlarının sağlamlığına həssas münasibət və rəhbər diqqəti



Əvvəli 4-cü səh.

Tibbi maska istehsalı üçün Türkiyədən gətirilmiş müasir avadanlıq qısa müddətdə quraşdırılıb. Müəssisənin yaradılması üçün investisiya xərcləri 3,9 milyon manat təşkil edib. Müəssisədə 30-dan çox yeni iş yeri yaradılıb. İstehsal prosesi üç növbəlidir. Tibbi maskaların istehsalı müəssisəsində İSO beynəlxalq standartlarına uyğun xammaldan birinci mərhələdə gündəlik 120 min tibbi maska istehsal ediləcək. Qeyd edək ki, maskalar qablaşdırmadan öncə xüsusi avadanlıqla əlavə sterilizasiya olunur. Yaxın günlərdə daha bir istehsal xətti qurulacaq və ikinci mərhələ çərçivəsində istehsal həcmi 2 dəfə artırılaraq gündəlik istehsal 200-250 min tibbi maskaya çatdırılacaqdır. Müəssisənin məhsulları ilkin olaraq daxili bazarda tələbatı ödəməyə yönəldiləcək.

İnsan kapitalının qorunması, sağlamlıq prinsiplərinə riayət edilməsi, karantin rejiminin tələblərinin yerinə yetirilməsi və digər məsələlər hazırkı şəraitdə vacib yaşam kodeksidir.

Sağlamlığımızın qorunmasında tibbi maskaların əhəmiyyəti böyükdür. "Bakı Tekstil Fabriki" MMC tərəfindən Sumqayıt Kimya Sənaye Parkının ərazisində yaradılan müəssisədə maskaların gələn həftə satışa çıxarılacağı nəzərdə tutulub. Tezliklə aptek və tibb müəssisələrində maska qıtlığı olmayacaq.

Tibbi maska və dezinfeksiya vasitələrinin istehsalı bir daha göstərdi ki, Azərbaycanda iqtisadiyyatın inkişafı düzgün xətt üzrə aparılır. Ölkə rəhbəri müəssisənin açılışında xüsusi olaraq vurğulayıb ki, Sumqayıtda yerləşən Kimya Sənaye Parkı mənim təşəbbüsümlə yaradılıb və artıq burada bir çox müəssisələr fəaliyyət göstərir: "Bu müəssisələr bizim qeyri-neft iqtisadiyyatımıza da böyük töhfə verir. Eyni zamanda mövcud kadr potensialı, sahibkarlar sinfinin inkişafı, dövlət və özəl sektorun tərəfdaşlığı, daim dövlət tərəfindən özəl sektora göstərilən dəstək - həm siyasi, həm maddi dəstək, güzəştli kreditlərin verilməsi - bütün bu amillər yeni vəziyyətə gətirib çıxardı ki, biz vətəndaşlara lazım olan vasitələri qısa müddət ərzində operativ şəkildə istehsal edək və bazara təqdim edək".




Belə bir müəssisənin Sumqayıtda yerləşən Kimya Sənaye Parkında açılışının özünün məkan baxımından əhəmiyyəti böyükdür. Respublikamızın hər yerində bu virusa qarşı mübarizənin birlikdə aparılması onun məhvini tezləşdirir. Müəssisənin açılışı paytaxtla yanaşı bölgələrin bu işə səfərbərliyinin sübutudur. İkinci tərəfdən, respublikamızda istehsal olunan tibbi maska və dezinfeksiya vasitələri insanları qoruyacaq. Bu işdə əsas məqsəd ondan ibarətdir ki, insan kapitalı qorunsun, onların sağlamlığı təmin edilsin. Yerli məhsul öncə ölkə vətəndaşlarının xidmətinə verilsin.

Respublikamızda bütün qabaqlayıcı tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə dünyanı bürüyən koronavirus pandemiyasının qarşısının alınması, ölkə vətəndaşlarının sağlamlığının qorunması önə çəkilir. Bu gün ikinci bir ölkə tapmaq çətindir ki, orada insanlara karantin şəraitində göstərilən tibbi xidmət Azərbaycandakından üstün olsun.

Bütün bunlar Prezident İlham Əliyevin ölkə vətəndaşlarının sağlamlığına həssas münasibətinin və rəhbər diqqətinin bariz nümunəsidir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# İşsiz şəxslərə birdəfəlik ödəmənin verilməsinə başlandı - 10 min işsizə vəsait ödəndi

İlk olaraq 10 min işsiz şəxs üçün birdəfəlik ödəmə bank filiallarına və poçt şöbələrinə köçürüldü.

Onların müraciət edərkən qeydə alınan telefon nömrəsinə bu barədə SMS göndəriləcək.

Yalnız bu mesajı aldıqdan sonra işsiz şəxslər evdən çıxmaq üçün müvafiq qaydada icazə alaraq, SMS-də "Azərpoçt" MMC qeyd edilibsə, istənilən poçt şöbəsinə, SMS-də bank göstərildiyi halda isə həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət edib vəsaitlərini ala bilərlər.

Ödəmələrin verilməsi gündəlik davam edəcək və qeydiyyata alınan digər işsiz şəxslər də bu ödənişlə təmin ediləcəklər.

***"Azərbaycan"***

# Dövlət xoş gündə də, çətin anda da vətəndaşlarının yanındadır

Dünya ən yeni tarixinin çətin sınaqlar dövrünü yaşayır. Ötən ilin sonlarından müxtəlif ölkələrdə işartıları görünməyə başlayan COVID-19 infeksiyası qlobal pandemiyaya çevrilərək bütün bəşəriyyət üçün böyük təhlükə yaradıb. Hazırda dünyanın əsas qayğısı bu çətinlikdən çıxış yollarını tapmaqdır.

Bakıda bu infeksiyaya yoluxmuş insanların müalicə olunduqları "Yeni klinika" Tibb Mərkəzinin açılışı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu vəziyyəti dünyanın yeni bir dövrə qədəm qoyması kimi xarakterizə etdi: "Bu, nə qədər davam edəcək heç kim bilmir. Xəstəlik nə qədər davam edəcək heç kim bilmir. Hesab edirəm ki, bütün proqnozlar şərti xarakter daşıyır. Bu xəstəliyin fəsadları özünü hansı formada büruzə verəcək? Bunu da biz bilmirik. Çünki biz hələ ki, bu xəstəliyin ibtidai mərhələsindəyik və özümüzü maksimum qorumalıyıq".

Baş verən son proseslər dövlətin, həmrəylik hissinin, milli birliyin cəmiyyət üçün nə qədər böyük dəyərlər olduğunu göstərdi. Güclü, çətin sınaqlarda vətəndaşlarını qorumağı bacaran bir dövlətə sahib olmaq duyğusunun da qürurunu yaşatdı. Biz bunu pandemiya böhranının ilk günlərindən Azərbaycan hökumətinin həyata keçirdiyi ardıcıl tədbirlərdə gördük.

Prezident İlham Əliyevin birbaşa nəzarəti, verdiyi tapşırıqlar əsasında reallaşdırılan çoxşaxəli tədbirlər göstərdi ki, ölkəmizdə istənilən vəziyyət idarə olunur. Dövlətimiz hər hansı böhran anını nizama salmaq gücündədir, xoş gündə də, çətin anlarda da öz vətəndaşının yanındadır.

Azərbaycan ilk tədbirlərdən biri kimi dünyanın ən ucqar məkanlarında xəstəlik xofu qarşısında narahatlıq keçirən vətəndaşlarımızın, xüsusən xaricdə təhsil alan tələbə gənclərimizin ölkəmizə gətirilməsini təmin etdi. Bu günə qədər 15 minə yaxın Azərbaycan vətəndaşı başqa ölkələrdən təxliyə edilib və onların böyük əksəriyyəti karantinə yerləşdirilib. İnfeksiya riski daşıyan bütün insanların bir müddət karantin rejimində saxlanması üçün lazımi şərait yaradılıb. Bu gün Azərbaycandakı karantin yerlərində mövcud olan vəziyyət, burada saxlanan insanlar üçün təmin edilmiş şərait dünyadakı analoji məkanlar arasında, demək olar ki, ən yaxşılarındandır. İnfeksiya aşkarlanan şəxslərin müalicəsi, xəstəliyin ağır fəsadlarının, insan itkilərinin qarşısının alınması üçün dövlət lazımi tədbirlər görür. Son illər bütün ölkə boyu tikilmiş, yenidən qurulmuş böyük xəstəxanalar, müalicə-diaqnostika mərkəzləri buna imkan verir.

Hazırda karantində qalan vətəndaşların sayı 4500-dür. Karantin rejimində olan ən çox insan məkanı Atletlər kəndidir. Orada hazırda təqribən 1300-dən çox insan yerləşdirilib. Belə vətəndaşlar eyni zamanda Bakı şəhərində və bölgələrdə 4-5 ulduzlu hotellərdə, istirahət zonalarında, bəzi dövlət qurumlarının istirahət mərkəzlərində də yerləşdirilir. Ümid edirik ki, məhz dövlətimizin gördüyü tədbirlər nəticəsində Azərbaycan bu pandemiyadan ən az itkilərlə çıxmış ölkələrdən olacaq. Amma bu, təkcə dövlətin işi deyil, vətəndaş olaraq hər birimiz də öz fərdi davranışlarımız, şəxsi məsuliyyət hissimizlə buna kömək göstərə bilərik və göstərməliyik. Ən böyük faydalarımızdan biri, təbii ki, ilk növbədə panikanın təsirinə düşməmək, qeyri-dəqiq, yanlış məlumatları yayıb çaşqınlıq yaratmamaq, rəsmi xəbərlərə istinad etmək və ona uyğun davranmaqdan ibarətdir.

Bəli, koronavirus pandemiyası bu gün dünya üçün böyük təhdiddir. Hazırda bu problemlə üzləşməyən ölkə, demək olar ki, yoxdur. Dünyanın kifayət qədər yüksək inkişaf səviyyəsinə malik İtaliya, İspaniya kimi ölkələri, hətta Amerika Birləşmiş Ştatları vəziyyət qarşısında aciz qalıb. Hər gün on minlərlə insan bu xəstəliyə yoluxur, minlərlə insan dünyasını dəyişir. Ümumən bütün dünyada çox mürəkkəb vəziyyət yaranıb. Azərbaycan hökuməti də vəziyyətin mürəkkəbliyini, böhranın ciddiliyini vətəndaşlarla açıq şəkildə bölüşür. Çünki başqa dövlətlərdə vəziyyətin bu həddə gəlməsinin bir əsas səbəbi də rəylərə görə insanların baş verənləri əvvəlcədən ciddiyə almaması, karantin tədbirlərinə əməl etməməsi olub. Azərbaycan dövləti isə vətəndaşlarda məsuliyyət hissinin artırılmasından ötrü panika və ajiotaj yaratmayacaq səviyyədə vəziyyətin ciddiliyini çatdırır.

Pandemiya ilə mübarizə sahəsində görülən işlər mütəmadi qaydada əhaliyə təqdim edilir. İnsanlarımız ölkəmizdəki cari vəziyyət, xəstəliyə yoluxanların, sağalıb yenidən normal şəkildə cəmiyyətə dönənlərin, karantində olanların sayı barədə məlumatları müntəzəm qaydada əldə edə bilir. Ən doğrusu da budur, belə durumlarda ən effektiv yol mümkün qədər açıq olmaq, insanlara doğruları söyləməkdir.

## Birlik, həmrəylik göstərməklə yanaşı, məsuliyyət də nümayiş etdirməliyik

Son günlərin mənzərəsi Azərbaycan vətəndaşının dövlətin həyata keçirdiyi siyasətə dəstəyini, cəmiyyətimizdəki milli həmrəyliyi də bir daha nümayiş etdirdi. Koronavirus infeksiyasına yoluxma hallarının azaldılması üçün ən effektiv təcrübə insanların mümkün qədər bir-birindən təcrid vəziyyətində yaşamasıdır. Bu baxımdan indi hər bir kəsin səhhəti üçün ən etibarlı yer evdir. Ona görə də Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargah müəyyən məhdudiyyət və qadağalar tətbiq edir. Vətəndaşlarımıza evdə qalmaq, zərurət olmadıqca küçəyə çıxmamaq, bir-biri ilə üzbəsurət ünsiyyətdən çəkinmək tövsiyə olunur. Bu qadağa və tövsiyələr bütün kommunikasiya kanalları vasitəsilə mütəmadi şəkildə əhalinin diqqətinə çatdırılır. Bunlar hökumətin gördüyü tədbirlərdir, müəyyən etdiyi direktivlərdir və yerinə yetirilməsi hər birimiz üçün vacibdir. Hökumət vətəndaşları bu tələblərə əməl etməyə çağırır. Eyni zamanda müsbət hal kimi vətəndaşların özlərinin də bir-birini bu tələbə əməl etməyə çağırdıqlarını görürük. "Evdə qal, Azərbaycan!" çağırışı bu günlərin əsas davranış tərzinə çevrilib. Əksəriyyət bir-birinə evdə qalmağı tövsiyə edərkən anlayır ki, bu hal müvəqqətidir. Tezliklə ötüb keçəcək və daha tez, ziyansız ötüşməsindən ötrü dövlətin tələb və tövsiyələrinə hamılıqla əməl etməliyik. Aprelin 5-dən qüvvəyə minmiş yeni karantin qaydalarının bir məqsədi var: bu xəstəlik Azərbaycanda geniş yayılmasın.

Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışında vətəndaşlara müraciətində bu məsələnin əhəmiyyətini xüsusi vurğulamışdır: "Mən dəfələrlə bildirmişəm ki, biz həm milli birlik, həm həmrəylik nümayiş etdirmişik və məsuliyyət də nümayiş etdirməliyik. Amma indiki şəraitdə aprelin 5-dən sonra qüvvəyə minmiş qaydaları nəzərə alaraq vətəndaşlar nizam-intizam nümayiş etdirməlidirlər... Əminəm ki, vətəndaşlar bu qaydalara tam əməl edəcəklər və beləliklə, xəstəlik geniş vüsət almayacaq, biz bu vəziyyətdən az itkilərlə çıxa biləcəyik".

İnsanlar bu tələbləri nəzərə alır, əhalinin sağlamlığını qorumaqdan ötrü onların məcburiyyətdən irəli gəldiyini anlayır. Buna məhəl qoymayanlar isə kütləvi şəkildə qınanır. Cəmiyyət durumun ciddiliyini belələrinə də anlatmağı borc bilir. Vəziyyəti heç cür dərk etməyib özünü də, başqalarını da risk altına qoyanlara qarşı isə ciddi inzibati cəzalar tətbiq edilir. Çünki hansısa şəxsin COVID-19 infeksiyasına yoluxması təkcə bir nəfərin sağlamlığının pozulması deyil. Onunla təmasda olan onlarla insanın, doğmalarının, yaxınlarının da səhhətinin təhlükə altına düşməsidir. Ölkənin hər yerində bu xəstəliyə qarşı mübarizə aparan tibb işçilərimizin, digər aidiyyəti sənət sahiblərimizin işinin daha da artmasıdır, ümumən dövlətimizin yükünün bir xəstə sayı qədər də ağırlaşmasıdır. Əgər qaydalara əməl edilməzsə, vəziyyət ən pis ehtimallara doğru inkişaf edər, hamımız üçün böyük faciələrə gətirib çıxara bilər.

## Milli həmrəylik hissi

Hazırda ölkəmizdə pandemiya özünün, demək olar ki, ən ciddi mərhələsinə qədəm qoyub. Dövlət qurumları da bunu vətəndaşlardan gizlətmir. Bütün dünyada yoluxma və ölüm hallarının sayı artmaqdadır. Ona görə də bu günlərdə karantin rejiminə dəqiqliklə əməl etmək sosial məsuliyyət hissidir. Mümkün faciələrin qarşısını almaqdır. Vətəndaşların dövlətə köməyidir. Milli həmrəylik mənzərəsidir. Çətin sınaqlar dövründə həmrəyliyə, milli birliyə nail olmaqdan ötrü hər kəs üzərinə düşəni yerinə yetirməyə çalışmalıdır. Bu, belə də olmalıdır. Çünki biz birlikdə güclüyük. Heç bir çətinlik, problem, sınaq bu birliyin gücündən üstün deyil. Milli həmrəyliyimizin yaratdığı inamla, bir-birimizə qarşılıqlı dəstəyimizlə bu sınağı da tezliklə geridə qoyacağıq.

Biz böyük milli-mənəvi dəyərləri olan toplumuq. Ədadlarımız bu dəyərləri xoş günlər qədər həm də çətin vədələrdə, ağır sınaqlar mühitində yaradıblar. Azərbaycan cəmiyyəti bu günlərdə öz milli və dövlətçilik dəyərlərini bir daha nümayiş etdirir. Müxtəlif xəstəxanalarda insanların həyatını xilas etməkdən ötrü gecə-gündüz bilmədən çalışan həkimlərimizin, infeksiyanın daha geniş əhatədə yayılmaması üçün xidməti borcunu fədakarlıqla yerinə yetirərək karantin rejimini təmin edən polis əməkdaşlarımızın, əsgər və zabitlərimizin yaratdıqları nümunə böyük fədakarlıq olmaqla yanaşı, həm də dəyərlərimizin təcəssümüdür.

## Tarixin dərslərindən nəticə çıxaraq

Son günlər tez-tez düşünürəm: əgər min illərin təcrübəsinə, inkişaf nailiyyətlərinə baxmayaraq bəşəriyyət hələ də bir xəstəlik virusu qarşısında aciz qalırsa, onda bu qədər müharibələrə, qan-qadalara, insan övladının sərvət uğrunda bir-birinə qənim kəsilməsinə dəyərmi?

Zamanın hər sınağı, əslində, tarixin bizə verdiyi böyük bir ibrət dərsidir. Bütün dünyanı bürümüş, qlobal iqtisadiyyatı sarsıtmış COVID-19 pandemiyasına bir də bu prizmadan baxmağımız lazım gəlir. Əlbəttə, tarix boyu baş vermiş saysız-hesabsız çətinliklər kimi bunu da tezliklə adladacağıq. Pandemiyanın həyatın müxtəlif sahələrində yaratdığı təsirlər qısa zamanda aradan qalxacaq. Bütün yaşananlar sadəcə bir xatirəyə dönəcək, getdikcə bizdən uzaqlaşan tarixə çevriləcək. Amma heç olmasa bu tarixin dərslərindən də nəticə çıxaraq. Anlayaq ki, Yer kürəsi hamımızın ümumi evidir. Hər birimiz bu evin bir-birimizə doğma sakinləriyik.

İndiyə qədər insanın Yer üzünə xeyri qədər ziyanı da olub. Xırda mənfəətləri naminə havasına ziyan vurub, yaşıllıqlarına qənim kəsilib, suyunu çirkləndirib, bitki və heyvanlar aləminin axırına çıxmağa başlayıb. İndi isə planetimizi qorumaq haqqında düşünmək vaxtıdır.

İnsanlar indiyə qədər müəyyən maraqların ardınca gedərək bir-birindən uzaq düşüblər. Müxtəlif amillərin, xırda hisslərin təsiri ilə bir-birinə qənim kəsiliblər. Özlərini başqalarından ayırmaq üçün mümkün qədər daha çox fərqlər tapıb, miflər uydurub, nifrət hissini yüksəldiblər. İndi isə insanların bütün fərqləri, kin-küdurəti, cılız maraqları kənara qoymasına ehtiyac var. Artıq bir-birimizə sevgi göstərməyi öyrənməliyik. Bəşəriyyət yeni minilliyin ikinci onilliyində üzləşdiyi bu vəziyyətdən, ümid edək ki, gələcək üçün lazımi dərslər ala biləcək. İnsana sevgi, ali ideyalar uğrunda həmrəylik, bərabərlik, ədalət, şəfqət, xeyirxahlıq, qarşılıqlı hörmət, cəmiyyət qarşısında sosial məsuliyyət hissi bundan sonrakı dünyamızda daha böyük aktuallıq kəsb edəcək. Bu dəyərləri daha çox insan bölüşəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Hər kəs məqsəd aydınlığı ilə çalışır









**Bütün dünyaya meydan oxuyan, inkişaf etmiş, güclü iqtisadiyyata malik dövlətləri aciz durumda qoyan koronavirus infeksiyasının (COVID-19) ağır sınağından daha az itkilərlə çıxmaq üçün ölkəmizdə zəruri tədbirlər görülməkdədir.**

Paytaxt Bakıda olduğu kimi regionlarda da bütün qüvvələr fəlakət və faciələr daşıyıcısı olan bu "çağırılmamış qonaq"la mübarizəyə səfərbər edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi qaydalara, tapşırıq və tövsiyələrə uyğun olaraq Saatlı rayonunda həyata keçirilən tədbirlər diqqət çəkir. Görülən işlərə aidiyyəti qurumlar, bütün inzibati ərazi vahidləri üzrə icra nümayəndəlikləri, yerli özünüidarəetmə orqanları, rayon polis şöbəsinin əməkdaşları cəlb edilmişlər. Bu məqsədlə rayon icra hakimiyyətində fəaliyyət göstərən operativ qərargaha rəhbərlik edən Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov bizimlə söhbətində deyir:

- Özünü xalqın xidmətçisi olduğunu dəfələrlə bəyan edən və bu şərəfli missiyanı dövlət məmurlarının qarşısında son dərəcə ciddi tələb kimi qoyan Respublika Prezidenti İlham Əliyevin qəbul etdiyi taleyüklü qərarlar dövlətin xalq üçün çalışdığını real tədbirlərlə təsdiqləyən gerçəklikdir. Bu çətin zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqa ünvanlanan, qayğı və məhəbbətlə yoğrulan müraciətləri ölkəmizin hər yerində, hər evdə, hər ailədə olduğu kimi respublikanın qabaqcıl kənd təsərrüfatı rayonu olan Saatlıda da razılıq və minnətdarlıqla qarşılanır. Bu ağrılı günlərdə hər kəsi bir olmağa, sözün həqiqi mənasında daha doğmalaşmağa və birlikdə gözəgörünməz güclü düşmənlə, bəşəriyyəti ciddi şəkildə silkələyən koronavirus infeksiyası ilə mübarizə aparmağa sövq edir.

Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılovun söhbətindən öyrənirik ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar Saatlı şəhərinin bütün küçələri, mərkəzi park və meydanlar, rayonun 44 yaşayış məntəqəsi üzrə fərdi yaşayış evləri, inzibati binalar, sahibkarlıq obyektləri, küçələr, kəndarası yollar, habelə Saatlı şəhəri ərazisində 51, Sarıcalı kəndi ərazisində 20-dən çox ümumi yaşayış binalarının həyətyanı sahələri, girişçıxışları, Nərimanov kəndi ərazisində yerləşən məcburi köçkün qəsəbəsində 105 fərdi evin həyəti 3 dəfə dezinfeksiya edilərək yuyulmuşdur. Rayonun din xadimləri və ağsaqqallarla söhbətlər aparılmış, ibadət üçün insanların məscidlərə toplaşmamaları izah olunmuşdur.

Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi tövsiyələrlə bağlı rayonda yaradılmış 128 mobil qrup, həmçinin rayon icra hakimiyyətində könüllü fəaliyyət göstərən gənclər tərəfindən Yeni Azərbaycan Partiyasının Saatlı Rayon Təşkilatı və Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi ilə birgə rayon mərkəzinin küçələrində, eyni zamanda bazar ətrafında, rayonun digər kənd yaşayış məntəqələrində aidiyyəti qurumlarla birgə xüsusən ahıl yaşlı və köməyə ehtiyacı olan tənha insanlarla maarifləndirici söhbətlər aparılır, onlar koronavirus infeksiyasından qorunmaq üçün zəruri dezinfeksiya vasitələri və ərzaq məhsulları ilə təmin edilir, sosial məişət xidmətlərinin göstərilməsində, kommunal ödənişlərin edilməsində və s. işlərdə lazımi kömək göstərilir.

Saatlıda koronavirus infeksiyasına qarşı mübarizə tədbirləri ilə yanaşı, təsərrüfat işləri də müvəffəqiyyətlə davam etdirilir. Bu günlər yaz tarla işlərinin qızğın çağıdır. Ölkənin ən iri pambıq istehsalçısı olan Saatlıda çiyid səpininə start verilmişdir. Bu il 13740 hektar sahədə pambıq əkilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə aqrotexniki tələblərə uyğun olaraq ciddi hazırlıq işləri görülmüşdür. Pambıq əkiləcək torpaq sahələri vaxtında şumlanmış, qış aratına qoyulmuş, malalanıb səpin üçün hazır vəziyyətə gətirilmişdir. Səpin və becərmə texnikası keyfiyyətli təmir edilmişdir. Saatlı pambıqçıları böyük zəhmət bahasına qazandıqları qabaqcıl mövqeyini cari ildə də qoruyub saxlamaq, nailiyyətləri daha da artırmaq üçün bol məhsula indidən etibarlı bünövrə qoymaq üçün inamla çalışırlar.

Bu günlər zümrüd libaslı taxıl zəmilərində, tərəvəz əkiləcək sahələrdə, heyvandarlıq təsərrüfatlarında bol məhsul uğrunda mübarizə ahəng alıb. Hər kəs məqsəd aydınlığı ilə çalışır. Hazırda zəhmətinə, alın tərinə güvənən, dövlətin qayğısından güc alan Saatlı kəndlisinin məqsədi çətin sınaq ili olacağı gözlənilən cari ildə ölkə iqtisadiyyatının daha da güclənməsinə sanballı töhfələr verməkdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Qabaqlayıcı tədbirlər səmərə verir

# İlham Əliyevdən xalqa 4,8 milyard manatlıq dəstək

## Prezidentin yeni iqtisadi və sosial paketi pandemiyadan maddi zərər görən bütün təbəqələrin narahatlığına son qoyacaq

*Əvvəli 1-ci səh.*

### 4,2 milyon nəfəri əhatə edən sosial paketlər

Öncə 2019-cu ildə Prezidentin sosial islahatlar paketlərinə nəzər yetirək. Bu sosial paketləri əsasən minimum əmək haqqının, minimum pensiyanın, eyni zamanda təqaüd və müavinətlərin artırılması, problemli və vaxtı keçmiş kreditlərin geri qaytarılması və restrukturizasiyası, həmçinin həssas təbəqələrə mənzil, avtomobil və s. formada verilən dəstəyi özündə ehtiva etdi. Ümumi olaraq sosial islahat paketi 2,3 milyard manat maliyyə yükü ilə 4,2 milyon nəfəri, başqa sözlə, əhalinin 40 faizdən çoxunu əhatə etdi.

2019-cu il ərzində minimum əmək haqqı 93 faiz artırılaraq 130 manatdan 250 manata çatdırıldı. İki mərhələli baş tutan bu artımla minimal əməkhaqqı Prezidentin 2019-cu il fevralın 8-də imzaladığı sərəncamla 130 manatdan 180 manata artırılaraq 600 minədək insanı əhatə etdi. İyunun 18-də imzalanan sərəncamla isə 250 manat səviyyəsinə çatdırılaraq özəl sektorda çalışan 350 min, dövlət sektorunda isə 600 minə yaxın şəxsə aid oldu.

Sosial islahatlar paketinin digər istiqaməti əmək pensiyalarının artırılması ilə bağlı oldu. Belə ki, dövlət başçısının sərəncamı ilə 2019-cu ilin birinci rübündə pensiyalar 40 faiz artaraq 116 manatdan 160 manata qaldırıldı. Oktyabrın 1-dən ikinci sosial paket çərçivəsində isə bu göstərici 160 manatdan 200 manata qaldırılaraq 660 min təqaüdçünün sosial rifahının yaxşılaşdırılmasına real zəmin yaratdı. Ümumilikdə, 2019-cu il ərzində əmək pensiyalarının 72 faiz artımı 450 milyon manat maliyyə yükü ilə 750 min nəfəri əhatə etdi.

Bir sözlə, ötən il əməkhaqqı, müavinətlər, təqaüdlər, pensiyalar əhəmiyyətli dərəcədə artdı.

### Koronavirusun vurduğu zərərə görə dövlət dəstəyi

2020-ci il isə dünya dövlətləri üçün kabusa çevrildi. Çindən dünyaya yayılan koronavirus pandemiyası hələ də böyük fəlakətlərlə müşayiət olunur. Təbii ki, Azərbaycan da bu infeksiya ilə mübarizə aparan ölkələrdən biridir. Ancaq Prezident İlham Əliyevin müdrik qərarları ilə vaxtında görülən qabaqlayıcı tədbirlər sayəsində Azərbaycan bu təhlükədən o qədər də ağır zərbə almayıb. Ölkədə elan edilən karantin rejiminə əsasən bir çox müəssisələrin fəaliyyəti müvəqqəti olaraq dayandırılıb.

Lakin hər zaman xalqın qayğısına qalan, vətəndaşın sosial rifah halının yaxşılaşdırılması istiqamətində mühüm qərarlar qəbul edən dövlət başçısı bu durumda da ənənəsinə sadiq qalaraq müstəqillik tariximizin ən böyük iqtisadi və sosial paketini təqdim etdi.

Maliyyə tutumu 2,5 milyard manat olan yeni dövlət dəstəyi proqramları ilə sahibkarlıq subyektlərinə böyük güzəştlər ediləcək, işləməyən insanlara sosial yardımlar həyata keçiriləcək.

Proqrama görə, 300 mindən çox işçinin əməkhaqqının bir hissəsini dövlət ödəyəcək. Dövlət dəstəyindən 300 mindən çox mikro və fərdi sahibkar faydalanacaq. Yəni dövlətin karantin rejimi ilə bağlı dəstək proqramında elan etdiyi vəsait kifayət qədər böyükdür.

Sosial məsələlərə dair isə dörd istiqamət üzrə 10 tədbir nəzərdə tutulub. Bu da 1 milyon 900 min vətəndaşı əhatə edəcək. Sosial sahədə dayanıqlılığın qorunması üçün ümumilikdə istifadə olunacaq vəsait 394 milyon manatdır. Bu məbləğin 100 milyon manatı dövlət büdcəsindən, 203 milyon manatı Dövlət Sosial Müdafiə Fondundan, 91 milyon manatı isə işsizlikdən sığorta fondundan istifadə ediləcək.

Bu proqramların icrası nəticəsində ünvanlı dövlət sosial yardımın verilməsində də dəyişikliklər olacaq. Belə ki, ünvanlı sosial yardımın xüsusi karantin rejimi dövrü bitənədək bütün ailələrə verilməsinin davam etdirilməsi və bu dövrdə ünvanlı dövlət sosial yardımın təyinatının sadələşdirilməsi nəzərdə tutulub.

Bu, 62 min vətəndaşı əhatə edəcək. Burada məqsəd ondan ibarətdir ki, 62 min vətəndaş üçün hətta ünvanlı sosial yardım dövrü başa çatsa da belə karantin dövründə həmin müddətin uzadılması həyata keçiriləcək. Eyni zamanda ünvanlı sosial yardıma müraciət imkanları asanlaşacaq.

Sosial baxımdan həssas əhali qrupuna aid ailələrin üzvü olan tələbələrin təhsil haqqı dövlət tərəfindən 2020-ci ildə ödəniləcək. Yəni imkansız ailələrin üzvü tələbədirsə, həmin tələbənin təhsil haqqı dövlət büdcəsi vəsaiti hesabına ödəniləcək. Bu istiqamətə 40 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Burada məqsəd ondan ibarətdir ki, həmin ailələrin təhsil haqqının ödənilməsi ilə bağlı problem yaranarsa, o ailələrə dəstək olunacaq.

Aprel və may aylarında həm də elektrik enerjisi ilə bağlı limitlər tətbiq olunacaq. Bu xərc də dövlət büdcəsi hesabına qarşılanacaq və bu istiqamətə 10 milyon manat vəsait ayrılacaq. Bu baxımdan tədbirlər planı daha çox aprel və may aylarında birbaşa dəstəyin, ödənişlərin ödənilməsi ilə müşahidə olunacaq.

Beləliklə, bu proqram sayəsində pandemiyadan maddi zərər görən bütün təbəqələrin narahatlığına son qoyulacaq və dövlət başçısının bu genişmiqyaslı iqtisadi və sosial paketi həm iqtisadi sahədə artan dinamikaya müsbət təsir göstərəcək, həm də həssas təbəqəyə aid olan vətəndaşları bu böhrandan qoruyacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan koronavirusa qarşı ciddi mübarizə aparır

Yeni növ koronavirus, COVID-19 dünya üzrə inanılmaz sürətlə yayılmaqda və aldığı canların sayını artırmaqda davam edir. Hətta ən inkişaf etmiş dövlətlər, super güclər belə bu xəstəliklə mübarizədə böyük problemlər yaşayır, onun qarşısını almağa, insanların həyatını xilas etməyə acizlik çəkir.

Qlobal pandemiyaya çevrilən koronavirus infeksiyasından qorunmaq bu gün Azərbaycan dövləti üçün ən vacib məsələdir. Bu səbəbdən də dövlət infeksiyanın təsirlərindən az itki ilə çıxmaq üçün ciddi şəkildə mübarizə aparır.

Fevralın əvvəlindən etibarən reallaşdırılan tədbirlər infeksiyanın xaricdən idxalını məhdudlaşdırmaq və onun ölkə daxilində yayılmasının qarşısını almaq məqsədi daşıyıb. Dövlət orqanlarının fəaliyyətini əlaqələndirən operativ qərargahın yaradılması, bəzi ölkələrlə sərhədlərin bağlanması və gediş-gəliş təmaslarının məhdudlaşdırılması, karantin rejiminin tətbiqi və digər addımlar hazırkı dövrə kimi qarşıya qoyulan vəzifələri maksimum icra etməyə imkan verib.

İnsanların bir-biri ilə yaxın əlaqələrini minimuma endirmək, infeksiyaya yoluxmanın sürətini azaltmaq məqsədilə ölkə ərazisindəki xüsusi rejim dövrü aprelin 20-dək gücləndirilib. Aprelin 5-dən 20-dək yükdaşımaları istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən yerli hava uçuşları tam şəkildə dayandırılıb.

Bununla yanaşı, əhalinin sosial rifahının qorunması, işsizlərin maddi təminatı üçün də zəruri tədbirlər görülür.

Elə buna görədir ki, koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində atdığı qətiyyətli addımlara, göstərdiyi diqqət və qayğıya görə ölkənin bütün guşələrindən Prezident İlham Əliyevə çoxsaylı minnətdarlıq məktubları ünvanlanır...

### ÜST-ün Baş direktoru Azərbaycana təşəkkür etdi

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adanom Gebreyesus Azərbaycana təşəkkür edib.

Bu barədə o, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü əsasında Türk Şurasının videokonfrans vasitəsilə keçirilən fövqəladə Zirvə görüşündə bildirib:

"COVID-19 Strateji Hazırlıq və Reaksiya Planımıza dəstək verən bütün üzv dövlətlərə və tərəfdaşlarımıza təşəkkür etmək istəyirəm. 800 milyon dollara qədər maliyyə dəstəyi verilib. Xüsusilə, beş milyon dollar dəyərində yardımla bu işə öz töhfəsini verən Azərbaycan hökumətinə və xalqına təşəkkür edirəm".

### Tibbi maskaların qiyməti 30 qəpikdən baha olmamalıdır

Hökumət Azərbaycanda tibbi maskaların qiymətinin 30 qəpikdən yuxarı olmamasına nəzarət edir. Nazirlər Kabineti mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib ki, əhaliyə satılan tibbi maskaların qiyməti 30 qəpikdən baha olmamalıdır: "Xaricdən ölkəyə idxal edilən tibbi maskaların qiyməti 30 qəpikdən baha başa gəlir. Ancaq pandemiya dövrü üçün qiymət fərqini dövlət tibbi maska idxalçılarına ödəyir. Pandemiya ilə mübarizə dövründə bu qiymət fərqini dövlət ödəyəcək, dövlət bunu subsidiyalaşdırır".

### 11318 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib

Baş Dövlət Yol Polis İdarəsi ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar 09.04.2020-ci il saat 00:00-dan 10.04.2020-ci il 00:00-dək olan müddət ərzində DYP əməkdaşları tərəfindən görülmüş işlər barədə məlumat yayıb.

İdarədən verilən məlumata görə, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 09.04.2020-ci il saat 00:00-dan 10.04.2020-ci il 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1359 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 11318 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

### Koronavirusun dünya mənzərəsi

ABŞ Prezidenti Donald Tramp ölkəsində epidemiyanın pik nöqtəyə çatdığını bildirib: "ABŞ koronavirusun yayılmasının zirvəsindədir və bəzi ştatlarda artıq infeksiyaya yoluxmada azalma başlayıb. Bəzi hallarda eniş var, biz artıq bu prosesə başlamışıq".

Ölkənin vitse-prezidenti Mayk Pens isə qeyd edib ki, koronavirusla bağlı vəziyyətin ən kəskin olduğu ştatlarda da sabitləşmə əlamətləri getdikcə daha çox müşahidə edilir. O, nümunə olaraq Nyu Yorkun Denver və Luiziana yaşayış məntəqələrini göstərib.

Nyu York ştatının qubernatoru Endryu Kumo isə məlumat verib ki, burada son sutkada koronavirusdan ölənlərin sayı rekord həddə çataraq 779 nəfər olub. Nyu York ştatı ABŞ-da koronavirus epidemiyasının episentridir: "Ölənlərin sayı artır. Ötən gün 799 nəfər itirdik. Onların sayının artacağı istisna edilmir".

Qubernator koronavirusla bağlı müsbət göstəricilərin də müşahidə edildiyini vurğulayıb: "Gün ərzində süni nəfəs aparatından istifadə edən xəstələrin sayı azalıb, reanimasiyaya daha az adam daxil olub, eyni zamanda, xəstəxanaya yerləşdirilənlərin sayında da azalma var".

Son məlumatlara görə, ABŞ-da 452852 nəfər koronavirusa yoluxub, onlardan 16 mindən çoxu ölüb.

Koronavirus epidemiyasından İspaniyada kütləvi ölümlər davam edir. Son sutka ərzində ölkədə daha 605 nəfər koronavirusdan vəfat edib, bununla da koronavirusdan ölənlərin sayı 15 843 nəfərə çatıb.



Martın 1-dən etibarən Fransada koronavirusdan ölənlərin sayı 12210 nəfər olub. Ölənlərin 42 faizi 70 yaşdan yuxarı insanlardır. Son sutkada xəstəxanalarda ölənlərin sayı isə 412 nəfər artaraq 8044-ə çatıb.

Kanada hökumətinin məlumatına əsasən, ölkədə koronavirusa son yoluxanların sayı 841, ölənlərin sayı isə 34 nəfər olub. Ölkə üzrə ümumilikdə 19274 nəfər yeni virusa yoluxub. Onlardan 435 nəfəri dünyasını dəyişib.

Almaniyada son sutka ərzində daha 5323 nəfər koronavirusa yoluxub və bununla da virusa yoluxanların sayı 113525 nəfərə yüksəlib. 266 nəfər vəfat edib və koronavirusdan ölənlərin ümumi sayı 2373 nəfərə çatıb.

Avstriyada yeni növ koronavirusa yoluxanların sayı 319 nəfər olub. Ümumilikdə ölkədə virusa yoluxanların sayı 13.2 min nəfər təşkil edir. İnfeksiyadan 319 nəfər vəfat edib. Ölkədə 134743 nəfər koronavirus testindən keçib.

İsraildə yeni koronavirusa yoluxanların sayı 10095 nəfərə yüksəlib. İsrail Səhiyyə Nazirliyinin məlumatına əsasən, 1061 nəfər sağalıb, 92 nəfər ölüb. Qeyd olunub ki, koronavirusa yoluxanlardan 164 nəfərinin vəziyyəti ağırdır, onlardan 125 nəfəri süni tənəffüs aparatlarına qoşulub.

### Tacikistan da sərhədlərini bağladı

Tacikistan hakimiyyəti ölkədən çıxışı və girişi müvəqqəti dayandırıb. Tacikistan Xarici İşlər Nazirliyi ötən gün yaydığı açıqlamada bildirib ki, koronavirusun ölkəyə daxil olmasının qarşısının alınması məqsədilə bütün xarici ölkə vətəndaşları üçün ölkəyə giriş və çıxış bağlanıb.

Məlumatda o da qeyd olunur ki, məhdudiyyətlər xarici ölkələrin Tacikistanda akkreditə olunmuş diplomatlarına, beynəlxalq təşkilatların və maliyyə institutlarının nümayəndələrinə, həmçinin onların ailə üzvlərinə şamil olunmur.

Macarıstanda son sutka ərzində 210 nəfər koronavirusa yoluxub. Ölkənin Səhiyyə Nazirliyi bildirib ki, indiyədək ölkədə bir sutka ərzində bu qədər yoluxma olmayıb, bu, ölkədə bu günə qədər ən çox qeydə alınan rəqəmdir. Bununla da Macarıstanda koronavirusa yoluxanların sayı 1190-a çatıb. İndiyədək koronavirusa yoluxmuş 77 nəfər vəfat edib.

Ukraynada isə daha 311 nəfər koronavirusa yoluxub. Ukrayna Səhiyyə Nazirliyinin məlumatına görə, ölkədə koronavirusa yoluxanların sayı 2203 nəfərə çatıb, 61 nəfər sağalıb, 69 nəfər ölüb.

Gürcüstanda yeni növ koronavirusa yoluxanların sayı 227 nəfərə çatıb. Gürcüstan hökumətinin koronavirusla mübarizə çərçivəsində yaratdığı xüsusi internet saytında məlumat verilib ki, hazırda ölkə üzrə karantində 4829 nəfər saxlanılır, stasionar müalicədə isə 410 nəfər var. Virusa yoluxmuş şəxslərdən 52-si sağalıb, 3 nəfər isə vəfat edib.

Rusiyada COVID-19-a 1786 yeni yoluxma faktı qeydə alınıb. Ümumi yoluxanların sayı 11917 nəfərə çatıb. Son sutka ərzində ölənlərin sayı isə 18 nəfərdir.

Rusiya ərazisində indiyədək koronavirusdan 94 nəfərin öldüyü açıqlanıb. Sağalanların ümumi sayı 795 nəfərdir.

İranda da koronavirusla bağlı vəziyyət ürəkaçan deyil. Son sutka ərzində daha 122 nəfər koronavirusdan vəfat edib, bununla da ölkədə bu virusdan ölənlərin sayı 4232 nəfərə çatıb.

Ermənistanda koronavirusa yoluxanların sayı 937 nəfərə çatıb. Son sutka ərzində ölkədə 16 nəfər yeni növ koronavirusa yoluxub, 1 nəfər ölüb, bununla da ölənlərin ümumi sayı 11 nəfər olub.

### Uşaqları da koronavirusdan qorumaq lazımdır

Uşaq cərrahı, Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasının baş həkimi Ramiz Poluxov deyib ki, uşaqların koronavirusa yoluxmadığını demək düzgün deyil, çünki onlar da yoluxur: "Ümumiyyətlə, uşaqlar, gənc nəsil bu infeksiyanı adətən yüngül, çox zaman da simptomsuz keçirirlər".

O bildirib ki, TƏBİB-in açıqladığı məlumatda da olduğu kimi, Azərbaycanda yoluxanlar arasında 2 yaşlı uşaq da var: "Bizim klinikada da 6 yaşlı uşaq müalicə olunur. Ona görə də uşaqlar koronavirusa yoluxmur demək doğru deyil. Yaşlı insanlar, digər əhalimiz kimi uşaqları da qorumaq lazımdır".

Baş həkim klinikada müalicə olunanların arasında ciddi ağır xəstə olmadığını, əksəriyyətinin vəziyyətinin stabil olduğunu deyib: "Koronavirus yeni bir infeksiyadır deyə, hələ tam öyrənilməyib. Bədənə düşəndə özünü necə apardığı tam məlum deyil. Bu, bədənin ümumi vəziyyətindən, yanaşı xəstəliklərdən asılıdır. Ona görə də hər hansı simptom olan kimi həkimə müraciət etmək lazımdır".

Həkim virusdan qorunmaq üçün tibbi maska, əlcək taxmağı, sosial məsafə saxlamağı, əlləri tez-tez yumağı, lazım olmadıqda evdən çıxmamağı tövsiyə edib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Koronavirus testiniz neqativ, əhvalınız pozitiv olsun

Aylardır hər kəsi vəhşətə gətirən, təlaşa salan bircə söz var - koronavirus. Ölümsaçan taclı bəla...

Aylardır insanlıq bu bəla ilə ölüm-dirim savaşına çıxıb. Bu savaşdan qalib kimi çıxanlar da var, uduzub həyatını itirənlər də...

Aylardır bəşəriyyət həyat, yaşam uğrunda imtahan verir sanki. "İmtahan"dan kəsilənlər də olur, keçənlər də... Və insanoğlu bu "imtahan" cavabının "pozitiv" çıxmasından qorxur, təlaşlanır, həyəcana qapılır...

İndi hamı koronavirus testinin neqativ çıxmasını arzulaya-arzulaya əhvali-ruhiyyəsini də neqativə kökləyir. Nəticədə insanların psixoloji durumu gərginləşir, stress, depressiya, psixoz halı yaranır.

Bəli, koronavirusun sosial həyatımızda yaratdığı dəyişikliklər psixologiyamızdan da izsiz ötüşmür. Nə qədər çalışsaq da, emosional sağlamlığımızı qoruya bilmir, "birdən mən də koronavirusa yoluxaram" qorxusuna əsir düşürük. Normadan artıq psixoloji təsirin depressiya ilə nəticələnəcəyini diqqətdən qaçırırıq. Halbuki psixoloji təzyiq, stress də elə xəstəlik qədər təhlükəlidir. Çünki stress immunitetin aşağı düşməsinə səbəb olaraq viruslara asanlıqla yoluxmağa, xəstəliyi ağır keçirməyə zəmin yaradır. Üstəlik viruslar bir müddətdən sonra ölür, amma insanın özündə yaratdığı depressiya adətən uzunömürlü olur və şəxsin xarakterinə, davranışına təsir göstərir. Bəs psixoloji durumumuzu, əhvalımızı pozitivə necə yükləyək, həyəcanımızı idarə etmək üçün nə edək?

### "Bu gün üçün ən böyük antidepressant özünü qorumaqdır"

Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmov deyir ki, koronavirus nəinki sosial həyatımıza, ümumən indiki və bundan sonrakı həyatımızın bütün sferalarına öz təsirini göstərəcək. Bu təsirin mənfi və ya müsbət olması psixoloji dayanıqlılıqdan çox asılıdır. Təbii ki, hər bir insan həyatında bu və ya digər formada çətinliklərlə üzləşib. Bu, həyatın qaydasıdır, kimsə bundan sığortalanmayıb. Lakin həmin çətinliklər fərdi şəkildə, ən yaxşı halda lokal çevrədə yaşanıb. Koronavirus isə pandemiyadır, bütün dünya xalqları bundan əziyyət çəkir: "Virus qocaya və cavana, yaxud varlıya və kasıba baxmır. Heç kim qorunmadığı təqdirdə ona tutulmamaqdan sığortalanmayıb. Ona görə də bugün baş verənləri hər insan özünəməxsus formada dəyərləndirir və bu, normaldır. Emosional sağlamlığı qorumaq üçün birmənalı şəkildə pozitiv məqamlara köklənməliyik, özümüzü buna məcbur etməliyik. Rəsmi məlumatlara istinad etməli, qoyulan tələblərə riayət etməliyik. Koronavirus fobiyası daha çox yanlış informasiyalardan dolayı yaranır. Yanlış informasiya isə əsasən sosial media üzərindən yayılır. Ona görə də mütəxəssislər belə situasiyalarda sosial mediaya deyil, ənənəvi mediaya üstünlük verilməsini tövsiyə edirlər. Bu gün verilən qərarlar virusdan qorunmaq xarakteri daşıyır. Qaydalara nə qədər məsuliyyətlə yanaşarıqsa, bir o qədər təhlükəsizliyimizi qorumuş olarıq".



E. Rüstəmovun sözlərinə görə, koronavirusun problemli tərəflərindən biri insanların bir qisminin onu mövsümi qrip kimi dəyərləndirməsidir. Nəzərə almaq lazımdır ki, mövsümi qripin gedişatı dəqiq proqnozlaşdırılır. Lakin koronavirusun nə ilə sonlanacağı hələ də dəqiq bilinmir. Bu da təbii olaraq insanlarda psixoloji gərginlik yaradır: "Köhnə viruslarla müqayisədə yeni virus barədə daha zəif anlayışımız var. Qaydaların sərtləşməsi, karantin müddətinin uzadılması da bununla bağlıdır. Belə olan təqdirdə insanlarda narahatlığın, müxtəlif psixoloji problemlərin yaranması qaçılmazdır. Depressiya psixoloji pozuntulardan biridir. Demək olmaz ki, belə hallarda bütün insanlar depressiyaya düşürlər. Xeyr, sadəcə olaraq psixoloji problemlər artır, bir qisim psixoloji problemlər isə belə deyək, "inkubasiya dövrünü" yaşayır, pandemiya bitəndən sonra ortaya çıxacaq. Bu gün üçün ən böyük antidepressant sağ qalmaq, özünü və yaxınlarını bundan qorumaq naminə mübarizə aparmaqdır. Məqsəd bu olsa, depressiya, stress və digər psixoloji problemlərdən sığortalanmış olarıq. Bu gün üçün hədəf maksimum qorunmaq və virusa tutulmamaqdır."

### "Öləcəyi və qida tapılmayacağı ehtimalı müasir insanı "dəli" edir"

Psixoterapevt Orxan Fərəcli bildirir ki, bütün dünyanı öz mənfi təsiri altına salan yeni tip koronavirus xəstəlik törətməklə bərabər, insanlarda qorxu, həyəcanı da artırmaqdadır. Əslində artan sürətlə qısa müddət ərzində 1 milyon yarımdan çox insanın yoluxması faktının həyəcan yaratması başa düşüləndir. Həyəcan özü-özlüyündə ağrı hissi kimi qoruyucu mexanizmə malikdir və insanı təhlükədən qorunmaq haqqında xəbərdar edir. Amma bu qoruyucu mexanizm bir mərhələdən sonra bəzi insanlarda o qədər artmağa başlayır ki, özü də əlavə probleme çevrilir. Artmış həyəcan gün ərzində insanı gərgin saxlamaqla yanaşı, müxtəlif pis düşüncələrlə, bədəndə ağrı, qızdırma, ürək döyüntüsü, nəfəs darlığı kimi əlamətlərlə özünü göstərməyə başlayır: "Koronavirusdan niyə qorxuruq? Mövcud məlumatlara görə, insanların iki təməl ehtiyacı olan təhlükəsizlik və qida risk altındadır. Öləcəyi və qida tapılmayacağı ehtimalı müasir insanı "dəli" edir. Yəni insan ətrafdan aldığı yalançı informasiyalardan bu qənaətə gəlir ki, qida çatışmazlığı olacaq, ac qalacağıq və virusa yoluxmaq bizim sonumuzu gətirəcək. Hər iki düşüncə insanda həyəcan yaratmaq üçün kifayət qədər ciddidir".

Bəs özümüzdə koronavirus qorxusu olduğunu necə bilərik? Psixoterapevt əlamətləri belə sadalayır:

- Daimi olaraq özünüzün və ya qohumlarınızın yoluxması qorxusu - "bəlkə mən də tutmuşam?!" düşüncəsi varsa;
- Səbəbsiz yerə bədənin araşdırılması (tez-tez hərarəti ölçmək, udqunaraq boğazın ağrıyıb-ağrımadığını yoxlamaq, nəfəsin tam gedib-getmədiyini yoxlamaq və s);
- Orqanizmdəki ən kiçik dəyişikliyin belə COVID-19-la əlaqəsinin internetdə nəzarətsiz formada axtarılması.

O. Fərəclinin sözlərinə görə, əgər yuxarıda qeyd olunan bu düşüncələrin təsiri ilə ürək döyüntünüz artırsa, nəfəs darlığı yaranırsa, əl-ayaqda titrəmə, mədə-bağırsaq pozuntuları və sair kimi həyəcana xas bədən əlamətləri olursa, bu o deməkdir ki, sizdə koronafobiya var: "Pandemiyanın yayıldığı ilk vaxtlarda sanki insanları rahatlatmaq üçün bu xəstəliyin ancaq yaşlıları öldürməsi ilə bağlı informasiyalar ön planda idi. Bu baxımdan ilk olaraq yaşı 60-dan yuxarı olan insanların daha çox psixoloji travma alması ehtimalı yaranır. Digər ən çox təsirə məruz qalan insanlar isə əvvəlcədən təyin olunmuş panikatak, həyəcan pozuntusu, obsesiv-kompulsiv pozuntu kimi xəstəliyi olanlardır. Bu insanlarda günlərlə davam edən xroniki stress öz mövcud xəstəliklərinin təkrar yaranmasına və ya pişləşməsinə gətirib çıxara bilər".

Psixoterapevt belə zamanlarda nə etmək lazım olduğunu da açıqlayıb. O, tövsiyə edir ki, əvvəlcədən təyin olunmuş sakitləşdirici dərmanları olan xəstələr həkimləri ilə əlaqə saxlayaraq müalicələrini davam etdirsinlər. İfrat həyəcanlı ataklar zamanı dərindən nəfəs alıb, bir neçə saniyə saxlayıb burundan verərək, həyəcanı nəzarətdə saxlasınlar. Həyəcanın daha da artmaması üçün "kirli" informasiyalardan uzaq dursunlar. Vatsap qruplarında yönləndirilən səsləri açmasınlar, yalnız rəsmi xəbərləri oxusunlar, özlərinin əmin olmadıqları məlumatları yaymasınlar: "Baxdığınız filmlərdə, oxuduğunuz kitablarda seçici olun. Daim film izləmək, kitab oxumaq bir mərhələdən sonra sizi yormasın deyə növbəli şəkildə fiziki aktivliyiniz olsun. Belə ki, ev şəraitində qısamüddətli gimnastika hərəkətlərinin həyəcan azaldıcı effekti sübut olunub. Qida və yuxu rejiminin qaydasında olması isə sizin xilaskarınız ola bilər. Evdə olmanızdan istifadə edib artıq qidalanmadan çəkinin, çünki aldığınız əlavə çəki karantin sonrası sizdə əlavə depressiv simptomlar yarada bilər. Həyəcan azaltma tədbirlərinin birincisi və ən vacibi gecə yuxusudur. Çox gec yatıb gec oyanmaq, 8 saat olsa da belə, sizə fayda verməyəcək. Düzgün yuxu rejimi eyni zamanda immuniteti güclü saxlamağın ən vacib yollarından biridir. Hər gün 8 saat qaranlıq otaqda, dərin yuxu rejimi immuniteti möhkəmləndirir. Araşdırmalar göstərib ki, gündəlik 7 saat yatanlara nisbətən 6 saat yatan insanlarda soyuqda xəstələnmə ehtimalı 4,2 dəfə daha yüksəkdir. 5 saat yatanlarda isə bu risk daha çoxdur. Yuxunuz pozulmasın deyə, axşamlar kofeinli qidalar və içkilər qəbul etməyin. Dediyim kimi, mütləq tez yatıb tez oyanmaq lazımdır. Bu, həm immuniteti artırmaq, həm də stressi azaltmaq baxımından inanılmaz təsirə malik mexanizmdir."

### Psixoloji dəstək almaq üçün "qaynar xətt"ə zəng edə bilərsiniz

Məlumat üçün qeyd edək ki, aprelin 6-dan Təhsil Nazirliyinin yeni 146-3 "Qaynar xətt" xidməti fəaliyyətə başlayıb. COVID-19 infeksiyası ilə əlaqədar karantin rejimi elan olunduğundan evdə qalan şagirdlər, eləcə də bütün vətəndaşlar mənəvi-psixoloji dəstəyə zərurət duyduğu hallarda sözügedən "Qaynar xətt" xidməti ilə əlaqə yarada bilərlər. Müraciət edən hər bir vətəndaşa məktəb psixoloqları tərəfindən telefon vasitəsilə psixoloji konsultasiya təşkil ediləcək, lazımi dəstəklə təmin olunacaqlar. 146-3 "Qaynar xətt" xidməti həftəiçi hər gün saat 10:00-dan 18:00-dək fəaliyyət göstərir.

Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən də koronavirus pandemiyası ilə bağlı tətbiq edilən xüsusi karantin rejimində əhalidə yarana biləcək psixoloji problemlərin aradan qaldırılması və onlara mənəvi dəstəyin göstərilməsi məqsədilə nazirliyin peşəkar psixoloqları tərəfindən 24 saat fəaliyyət göstərən telefon xətti vasitəsilə psixoloji konsultasiyalar təşkil olunur. Psixoloji yardıma ehtiyacı olan vətəndaşlar FHN-in "112" qaynar telefon xəttinə müraciət edə bilərlər.

Bütün mütəxəssislər pandemiya zamanı daha soyuqqanlı olmağı, panikadan uzaq durmağı, təmkinli davranmağı məsləhət görürlər. Yalnız rəsmi qurumların verdikləri məlumatları dinləyin, etibarlı mənbələrə söykənməyən yalan məlumatlara inanmayın.

İstənilən virusla mübarizə aparmağın ən birinci yolu güclü immunitetdir. Stress isə immuniteti zəiflədən amillərdən biridir. Buna görə də stressdən qorunun, əhval-ruhiyyənizi yüksək tutmağa, pozitiv olmağa çalışın.

Unutmayın ki, nə karantin dövrü, nə də koronavirus daimidir. Həyatımızdakı bu dəyişikliklər sadəcə olaraq qısamüddətlidir və başlıca hədəf hamımızın sağlamlığıdır. Odur ki, fiziki sağlamlığınızla yanaşı, psixoloji sağlamlığınızı da qorumağa çalışın.

Koronavirus testinizin neqativ, əhvalınızın pozitiv olması diləyi ilə...

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Tovuzda Aprel şəhidinin məzarı ziyarət olunub

Azərbaycanın zəfər tarixinə yazılmış Aprel döyüşlərindən 4 il keçir. Həmin döyüşlərdə igidlik göstərərək şəhid olanlardan biri də Tovuz rayonunun Bayramlı kəndində doğulub boya-başa çatmış Mirsalam Cəfərovdur.



Bu günlərdə rayon ictimaiyyətinin nümayəndələri şəhidin məzarını ziyarət etmiş, üzərinə gül dəstələri düzmüşlər. Qeyd olunmuşdur ki, Aprel döyüşlərində Azərbaycan Ordusunun qələbəsi xalqımızın qəhrəmanlıq salnaməsində silinməz izlər qoymuşdur. Cəmi bir neçə gün ərzində minlərlə hektar torpaqlarımız erməni işğalçılarından azad edilmişdir. Bu gün Mirsalam kimi cəsur kəşfiyyatçılarımızın şücaəti ilə azad edilmiş həmin ərazilərdə Azərbaycan bayrağı dalğalanır.

Qeyd olunmuşdur ki, Aprel döyüşlərində öz qüdrətini nümayiş etdirən Azərbaycan Ordusu Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin bir əmri ilə torpaqlarımızı işğaldan azad etməyə qadir olduğunu bir daha sübut etdi. Bu döyüşlərdə Azərbaycan xalqı bir daha əmin oldu ki, ölkə başçısının qətiyyəti, siyasi iradəsi və dünyanın ən güclü ordularından birinə çevirdiyi Azərbaycan Ordusunun gücü ilə ərazi bütövlüyümüz bərpa ediləcəkdir. İndi ölkəmizdə minlərlə Mirsalam Cəfərov kimi igidlərimiz var və onlar Ali Baş Komandanın əmrini gözləyirlər.

Şəhid Mirsalam Cəfərovun anası Qızxanım Cəfərova oğlu ilə fəxr etdiyini bildirmiş və şəhidlərə, onların ailələrinə göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıq etmişdir. Oğlu Mirsalamın doğum günündə onun xatirəsini yad edənlərə isə təşəkkürünü bildirmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# "Azərbaycan naminə" adlı esse yazı müsabiqəsinin qalibləri müəyyənləşdi

**Yeniyetmə və gənc nəslin milli köklərimizə, dəyərlərimizə bağlılıq, vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması peşəsindən asılı olmayaraq hər kəsin qarşısında duran ən ümdə vəzifələrdəndir. Bu dəyərlərin gənclərə aşılanmasında, təbliğində təhsil ocaqları mühüm rol oynayır.**




Mənəvi Dəyərlərin Təbliği Fondu bu istiqamətdə fəaliyyətini daha da genişləndirmək məqsədilə ölkəmizdə fəaliyyət göstərən təhsil ocaqları ilə sıx əlaqələr qurur, onlarla birlikdə müxtəlif maarifləndirici tədbirlər və layihələr həyata keçirir.

Fondun təhsil ocaqları ilə bu sahədə apardığı maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir. Hər kəsə bəllidir ki, vətənpərvərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir.

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi bu ilin fevral ayında Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə ölkəmizdə fəaliyyət göstərən 10 universitet arasında "Azərbaycan naminə" adlı esse yazı müsabiqəsi təşkil etmişdir. 2016-cı il 1-4 aprel tarixində Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərin 4-cü ildönümünə həsr olunmuş və 1 fevral - 10 mart tarixlərini əhatə edən müsabiqədə 3 mövzu - "Vətənpərvərlik və şəhidlik zirvəsi", "Mənəvi dəyərlərimiz" və "Azərbaycançılıq məfkurəsi" mövzuları üzrə yazıların qəbulu elan edilmişdir. İlk üç yer üzrə 6, həvəsləndirici yer üzrə isə 5 tələbəyə pul mükafatının verilməsi nəzərdə tutulmuşdur.

Müsabiqədə Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Lənkəran Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Bakı Mühəndislik Universiteti, Dövlət İdarəçilik Akademiyası, Gəncə Dövlət Universiteti və Azərbaycan İlahiyyat İnstitutunun tələbələri iştirak etmişlər. Tələbələr bu müsabiqəyə böyük həvəslə qatılmış və hər üç mövzu ətrafında ümumilikdə 323 mövzu münsiflər tərəfindən dəyərləndirilərək müsabiqəyə qəbul edilmişdir. Müsabiqə aprel ayında başa çatmış və nəticələr müəyyən edilmişdir.

Münsiflər komissiyası tərəfindən hər bir esse hərtərəfli, obyektiv yoxlanılmış və hər bir münsif tərəfindən ən yüksək nəticə əldə etmiş tələbələr müsabiqənin qalibləri adını qazanmışlar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirusa daha 65 nəfər yoluxub, 58 nəfər sağalaraq evə buraxılıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 65 yoluxma faktı qeydə alınıb, bir nəfər vəfat edib, 58 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, koronavirus (COVID-19) üçün götürülən analiz nümunələri müsbət çıxmış 1960-cı il təvəllüdlü, ağ ciyər ödəmi və tənəffüs çatışmazlığı olan vətəndaşın səhhətinin stabilləşdirilməsi ilə bağlı aparılan reanimasiya tədbirləri nəticə verməyib.

